**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA KONSTİTUSİYANIN HÜQUQİ MÜHAFİZƏ MEXANİZMİ: NƏZƏRİ VƏ PRAKTİKİ PROBLEMLƏR

İxtisas: 5607.01 – "Konstitusiya hüququ; bələdiyyə hüququ"

Elm sahəsi: Hüquq

İddiaçı: **Nəsib Heybət oğlu Şükürov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Konstitusiya hüququ" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: hüquq elmləri doktoru **Fərhad Sahib oğlu Abdullayev**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, dosent **Araz Raquf oğlu Qədiməliyev**

hüquq elmləri doktoru, dosent **Səidə Bəhram qızı Həsənzadə**

hüquq elmləri doktoru, professor **Arif Cəmil oğlu Quliyev**

hüquq elmləri doktoru, dosent **Akif Firudinoviç Süleymanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, professor **Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru **Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, dosent **Sübhan Fərmayıl oğlu Əliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı və işlənmə dərəcəsi**. Konstitusiyanın hüquqi mühafizəsi mühüm hüquq institutlarındandır. Belə ki, Konstitusiya ictimai münasibətlərin, onların mühafizəsinin və müdafiəsinin tənzimlənməsinin konkret ənənələrini və sahələrini təyin edən əsas və həlledici alətdir. Bundan başqa, normativ hüquqi aktların ümumi sistemində Konstitusiyanın "xüsusi çəkisi" daim artır.

Konstitusiya məqsədli istiqamətə malikdir. Belə ki, bu hüquqi sənəddə sosial maraqlar cəmlənmiş formada ifadə edilir. Konstitusiya hamı üçün məcburi (ümümi) xarakterə malikdir. Sosial maraqları cəmlənmiş şəkildə əks etdirməklə, Konstitusiya ictimai münasibətlərin əsas tənzimləyicisi, vətəndaş hüquq və azadlıqlarının təminatçısı kimi çıxış edir. Konstitusiya iqtisadi, sosial və digər sahələrdə dəyişikliklərin mühüm vasitəsi kimi xidmət edir və eyni zamanda ictimai şəraitin stabilləşməsinə, davamlılığına köməklik göstərir.

Ənənəvi olaraq, normativ hüquqi aktlar sistemində Konstitusiyanın əsas yerini müəyyənləşdirən əlamətlərin tərkibinə onun əvvəlcədən müəyyən edilmiş xüsusi prosedur qaydada qəbul edilməsi daxildir. Konstitusiya referendum (ümumxalq səsverməsi) qaydasında qəbul edilir. Konstitusiyanın qəbulunun xüsusi prosedurunun müəyyənləşdirilməsi, onun əsas elementlərinin Əsas Qanunda təsbit edilməsi, hər halda digər normativ hüquqi aktlar arasında Konstitusiyanın xüsusi əhəmiyyətini vurğulayır. Konstitusiyanın aliliyi, konstitusion qanunçuluq prinsipləri öz-özünə reallaşmır. Konstitusion qanunçuluq rejiminə ciddi əməl olunmadan, Konstitusiyanın səmərəli mühafizə vasitələri olmadan, onun müddəaları bütün hüquq subyektləri tərəfindən yerinə yetirilmədən və bütün hakimiyyət qollarının bu prosesdə sıx qarşılıqlı əlaqədə iştirakı təmin olunmadan hüquq qaydası dolğun şəkildə təmin oluna bilməz. Burada əsas rol Konstitusiyanın hüquqi mühafizəsinə aiddir.

Məlumdur ki, müasir dövrdə şəxsiyyətin, cəmiyyətin, dövlətin və onun institutlarının fəaliyyəti Konstitusiyaya əsaslanır. Bu, şəxsiyyətin hüquq və azadlıqlarını təsbit edən konstitusion normalara da aiddir. Əsas hüquq və azadlıqlar sistem halında Konstitusiyada öz

təsbitini tapdığından Konstitusiyanın hüquqi mühafizəsi insan və vətəndaş hüquq və azadlıqlarının mühafizəsini də nəzərdə tutur. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin birinci hissəsinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Bütün dövlət orqanlarının qəbul etdiyi qərarlar Konstitusiyaya və digər qanunlara əsaslanmalıdır. Bu məsələlərin həllinin mühüm şərtlərindən biri kimi Azərbaycan Respublikasının hüquq sistemində Konstitusiyanın aliliyinin təmin edilməsi çıxış edir. Konstitusiyanın aliliyinin təmin olunması məqsədilə spesifik konstitusion-hüquqi vasitələr (üsullar) tətbiq edilərək Konstitusiyanın hüquqi mühafizəsi həyata keçirilir. Əsas Qanunun hüquqi mühafizəsinin həyata keçirilməsində isə müxtəlif orqanlar və şəxslər iştirak edir.

Konstitusiyanın aliliyi – demokratik, hüquqi və sosial dövlətin təminatına, onun suverenliyinin mühafizəsinə, qanunçuluğun və hüquq qaydasının təmin edilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə yönələn əsas prinsipdir. Eyni zamanda Konstitusiya cəmiyyətin, dövlətin, şəxsiyyətin hüquqi statusunun əsaslarını təsbit etməklə Azərbaycan Respublikasında ümumi qaydanın (*ordre public*) məzmununu müəyyən edir. Bu kontekstdə Konstitusiyanın hüquqi mühafizəsi mühüm aktuallıq kəsb edir.

Konstitusiyanın hüquqi mühafizəsi mexanizmi problemi milli hüquq doktrinasında müstəqil elmi tədqiqatın predmeti olmamışdır. Bu vaxta qədər milli hüquq doktrinasında yalnız Konstitusiyanın hüquqi müdafiəsi məsələsi Z.O.Ələkbərov tərəfindən (Tranzitar dövlətlərdə Konstitusiyanın hüquqi müdafiəsi məsələləri (Azərbaycan Respublikasının timsalında))[1] tədqiq edilmişdir. Bu tədqiqat əsərində Azərbaycan Respublikasının timsalında Konstitusiyanın hüquqi müdafiəsinin ümumi məsələlərinə toxunulur. Milli hüquq doktrinasında konstitusiya icraa-

[1]Алекперов, З.О. Вопросы правовой защиты конституций в транзитарных государствах (на примере Азербайджанской Республики) / З.А. Алекперов. - Баку: Şərq-Qərb, - 2007. - 180 с.

tı (F.S.Abdullayev)[2], Konstiusiya məhkəməsinin ümumi yurisdiksiyası (C.Y.Qaracayev)[3], Konstiusiya məhkəməsində fərdi şikayətlərə baxılması (A.X.Rüstəmzadə)[4] problemlərinin tədqiqi istiqamətində Konstitusiyanın hüquqi mühafizəsi məsələsinin ayrı-ayrı aspektlərinə toxunulur. Eyni zamanda bu məsələyə Konstitusiya hüququ dərsliyi (Z.A.Əsgərov)[5] səviyyəsində də toxunulur.

Qeyd edək ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin: Rusiya Federasiyası, Ukrayna, Qırğızıstan Respublikasının hüquq doktrinasında Konstitusiyanın hüquqi mühafizə mexanizmi məsələsi tədqiqat predmeti olmuşdur. Dissertasiya işinin yazılmasında bu problemlə bağlı tədqiqatlar aparmış aşağıdakı müəlliflərin: T.Y.Xabriyeva, L.B.Tiunova, A.A.Kulmanbetova, A.H.Məhəmmədov, A.N.Stankin, İ.A.Kraveç, Y.Y.Teryukova, F.S.Samatov, Y.T.Todıka, Y.Y.Jerebçova, Q.A.Hacıyev, V.P.Kaşepov, N.M.Kolosova, B.S.Krılov, B.S.Ebzeyev, A.V.Bezrukov, A.D.Bolexivskaya, Y.L.Şuljenko, M.V.Teslenko, T.M.Pryaxina, A.A.Belkin, L.N.Plexanova, D.A.Basanqov, V.Y.Çirkin, L.V.Lazarev, V.A.Kryajkov, O.V.Brejnev, Y.Y.Kireyeva, M.A.Mityukov, A.A.Klişas, D.S.Korovinskix, Y.B.Berezin, N.A.Boqdanova, A.A.Petrov və s. elmi əsərlərindən nəzəri baza qismində istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikası Konstitusiyasının aliliyini, onun normalarına əməl olunmasını təmin edən konstitusiya hüquq münasibətləri təşkil edir.

Tədqiqatın predmetini Azərbaycan Respublikası Konstitusiyasının hüquqi mühafizəsini nəzərdə tutan Konstitusiyanın və digər qa-

---

[2]Abdullayev, F.S. Azərbaycan Respublikasında konstitusiya icraatının nəzəri və praktiki problemləri / F.S.Abdullayev. - Bakı: Elm, - 2009. - 396 s.

[3]Гараджаев, Д.Я. Конституционный суд Азербайджанской Республики: теория и практика / Д.Я.Гараджаев. - Одесса: Издательский дом Гельветика, - 2016. - 400 с.

[4]Rüstəmzadə, A.X. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində fərdi şikayətlərə baxılmasının hüquqi əsasları və onun təkmilləşdirilməsi / hüquq elmləri namizədi dis. / - Bakı, 2009. - 165 s.

[5]Əsgərov, Z.A. Konstitusiya hüququ / Z.A.Əsgərov. - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2011. - 760 s.

nunların müddəaları, Əsas Qanunun mühafizəsi ilə bağlı təcrübədə meydana çıxan məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Konstitusiyanın hüquqi mühafizə mexanizmi ilə bağlı məsələləri elmi cəhətdən və kompleks şəkildə tədqiq etmək, Əsas Qanunun mühafizəsi həyata keçirilərkən yaranan problemləri aşkara çıxarmaq və onların həlli yollarını təklif etməkdən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün dissertasiyada qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- Konstitusiyanın hüquqi mühafizəsinin nəzəri aspektlərinin təhlilini aparmaq;
- Konstitusiyanın aliliyinin və onun hüquqi qüvvəsinin əsas xüsusiyyətlərini araşdırmaq;
- Konstitusiyanın hüquqi mühafizəsinin anlayışını, formalarını və vəzifələrini təhlil etmək;
- Konstitusiyanın hüquqi mühafizə mexanizminin anlayışını və əsas ünsürlərini müəyyən etmək;
- Konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı ingilis-sakson hüquq sistemli ölkələrinin təcrübəsini təhlil etmək;
- Konstitusiyanın hüquqi mühafizəsi sahəsində kontinental hüquq sistemli ölkələrinin təcrübəsini nəzərdən keçirmək;
- Konstitusiyanın hüquqi mühafizəsi sahəsində postsosialist ölkələrinin təcrübəsini təhlil etmək;
- "Amparo proseduru"nun tətbiq edildiyi dövlətlərin və İslam hüquq sisteminə aid ölkələrin konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı təcrübəsini təhlil etmək;
- Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizə sisteminin yaranmasını tarixi inkişafda nəzərdən keçirmək;
- xüsusi qaydada Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsini Konstitusiyanın hüquqi mühafizə mexanizminin ünsürü kimi göstərmək;
- insan və vətəndaş hüquq və azadlıqlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yerini müəyyən etmək;
- vətəndaş cəmiyyəti institutlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yerini müəyyən etmək;

- Azərbaycan Respublikası Milli Məclisini Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biri kimi şərh etmək;
- Azərbaycan Respublikası Prezidentinin Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biri kimi rolunu təhlil etmək;
- hüquq mühafizə orqanlarını Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi nəzərdən keçirmək;
- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Konstitusiyanın hüquqi mühafizəsi üzrə fəaliyyətinin əsas istiqamətlərini təhlil etmək;
- ümumi və ixtisaslaşdırılmış məhkəmələrin Konstitusiyanın hüquqi mühafizəsi üzrə fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək;
- Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizəsinin məhkəmə mexanizminin təkmilləşdirilməsi məqsədilə təkliflər vermək.

**Tədqiqat metodları.** Dissertasiya yazılarkən həm ümumi hüquqi metodlardan, həm də xüsusi elmi metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardır:

1. Dövlətin hüquq sisteminin vəhdətini və tamlığını təmin edən, müstəqil konstitusion prinsip olan Konstitusiyanın aliliyinə geniş şəkildə bu cür anlayış verilməsi təklif edilir: Konstitusiyanın aliliyi onu ifadə edir ki, istənilən hüquqi akt, hakimiyyət orqanlarının və ya onların vəzifəli şəxslərinin istənilən hərəkəti Konstitusiyanın normalarına uyğun gəlməli, onun göstərişlərinə zidd olmamalıdır. Normalar arasında ziddiyyət olduqda ictimai münasibətlər konstitusion normalarla tənzimlənir. Konstitusiyanın aliliyi bütün hüquq sisteminin vahidliyi, tamlığı və ziddiyyətsizliyinin təmin edilməsi zərurətindən irəli gəlir. Bütövlükdə hüquq sistemində, o cümlədən normativ hüquqi aktlar içərisində Konstitusiyanın aliliyi onun demokratikliyi, xalqın iradəsinin ifadə olunması, yəni ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi, həmçinin burada beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının təsbit edilməsi, xarici dövlətlərin konsti-

tusionalizm sahəsində müsbət təcrübəsinin öz əksini tapması ilə şərtlənir.

2. Konstitusiyanın birbaşa hüquqi qüvvəsi – publik münasibət subyektlərinin hüquq və vəzifələrinin bilavasitə konstitusion norma çərçivəsində imperativ qaydada reqlamentləşdirilməsi olub normativ aktlar üçün yüksək normativlik xüsusiyyəti ilə məzmun müəyyənedici anlam kəsb edir.
3. Konstitusiyanın hüquqi mühafizəsinə aşağıdakı kimi tərif verilməsi məqsədəuyğun hesab edilir: Konstitusiyanın hüquqi mühafizəsi cəmiyyətin və dövlətin təşkilinin əsas prinsiplərinin (insan və vətəndaş hüquq və azadlıqlarının təminatlılığı, hakimiyyətlərin bölünməsi, ümumi seçki hüququ və s.) dəyişilməzliyini və daimiliyini təmin etmək məqsədilə qanunvericiliklə müəyyən olunur. Konstitusiyanın hüquqi mühafizəsi konstitusion normaların lazımi şəkildə həyata keçirilməsinin təmin edilməsi və konstitusion qanunçuluğun möhkəmləndirilməsi ilə bağlı kompleks hüquqi tədbirlər sistemidir. Daha geniş mənada Konstitusiyanın hüquqi mühafizəsi dedikdə, konstitusion normaların hüquqi qüvvəsinin təmin edilməsi üzrə zəruri şəraitin yaradılması, müvafiq təminatların inkişaf etdirilməsi və hüquqi vasitə və metodların təkmilləşdirilməsi başa düşülür. Dar mənada isə Konstitusiyanın hüquqi mühafizəsi hüquq sistemində konstitusiyanın aliliyinin təmin edilməsi məqsədilə spesifik konstitusion-hüquqi vasitələrin (üsulların) tətbiqini nəzərdə tutur.
4. Konstitusiyanın hüquqi mühafizəsi insan hüquq və azadlıqlarının maddi hüquqi standartlarının təmini üzrə prosessual fəaliyyəti ehtiva edir və insan hüquq və azadlıqlarının təminatı ilə bağlı dövlətin ali məqsədinə uyğun olaraq bütövlükdə hüquq sisteminin ümumi qaydasına (public order) xidmət edir. Konstitusiyanın hüquqi mühafizəsinin xüsusiyyəti ondan ibarətdir ki, bütün dövlət orqanları konstitusion normalara əməl olunmasını təmin etməlidirlər. Faktiki olaraq, bütün Azərbaycan xalqı Konstitusiyanın mühafizəsinin subyektidir. Eyni zamanda verilmiş səlahiyyət çərçivəsində Konstitusiyanın hüquqi mühafizəsinin əsas subyektləri kimi: Azərbaycan Respublikasının Prezidenti; Milli

Məclis; Nazirlər Kabineti; hüquq mühafizə orqanları; Konstitusiya Məhkəməsi; Ali Məhkəmə, Apellyasiya Məhkəmələri, ümumi və ixtisaslaşdırılmış məhkəmələr və İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) çıxış edirlər.

5. Konstitusiyanın şərhinə bu cür tərif vermək təklif edilir: Konstitusiyanın şərhi dedikdə, yeni norma yaradılmadan səlahiyyətli orqan tərəfindən Konstitusiyanın yalnız müəyyən normalarının qanunçuluq, obyektivlik, ədalətlilik, humanizm və hərtərəflilik prinsiplərinə ciddi əməl etməklə onun məzmununun izah edilməsi və dəqiq aydınlaşdırılması başa düşülür.
6. Müqayisəli-hüquqi təhlil əsasında göstərilir ki, postsosialist ölkələrinin 23-də Konstitusiya Məhkəməsi, 1 dövlətdə Konstitusiya Nəzarəti Məhkəməsi, 1 dövlətdə Konstitusiya Şurası, 1 dövlətdə Konstitusiya Tribunalı, 1 dövlətdə isə Dövlət Məhkəməsi fəaliyyət göstərərək konstitusiyanın mühafizəsini həyata keçirir. Postsosialist dövlətlərindən yalnız Türkmənistanın qanunvericilik aktlarında konstitusiya nəzarəti institutunun təsis edilməsi nəzərdə tutulmamışdır. Türkmənistanın Konstitusiyasına əsasən, qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarının Konstitusiyaya və qanunlara uyğunluğunu Türkmənistanın Parlamenti müəyyən edir. Ali məhkəmə instansiyası kimi Estoniya Respublikasında fəaliyyət göstərən Dövlət Məhkəməsi isə həm də konstitusiya nəzarətini həyata keçirir. Estoniya Respublikasının Dövlət Məhkəməsində Konstitusiya Nəzarəti üzrə Məhkəmə Kollegiyası fəaliyyət göstərir. Estoniya Respublikasının Dövlət Məhkəməsinin sədri eyni zamanda Konstitusiya Nəzarəti üzrə Məhkəmə Kollegiyasının sədridir. Belarus Respublikasının və Rusiya Federasiyasının Konstitusiya Məhkəməsi dünyada Konstitusiyanın mühafizəsini həyata keçirən yeganə milli orqandır ki, beynəlxalq orqanların aktlarının Konstitusiyaya uyğunluğunu yoxlamaq səlahiyyətinə malikdir.
7. Konstitsiyanın hüquqi mühafizəsinin əsas vasitələrindən birini Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsinin xüsusi qaydası təşkil edir. Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsinin xüsusi qaydası dedikdə, cəmiyyətin dəyişən tələblərini təmin

etmək məqsədilə hüquqi dövlətin konstitusiya sisteminin nüfuzunun azalmaması üçün balanslaşdırılmış, əsaslandırılmış və ictimaiyyət tərəfindən müzakirə edilmiş bütöv konsepsiya əsasında, konstitusiya mədəniyyətinə ciddi riayət edilməklə qüvvədə olan Konstitusiyanın mümkün təkmilləşdirilməsi başa düşülür.

8. İnsan və vətəndaş hüquq və azadlıqlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yeri böyük olduğundan Əsas Qanunun mühafizəsi konstitusiya müddəalarının və prinsiplərinin dəyişməzliyini və sabitliyini təmin etmək üçün mövcud və gələcəkdə zəruri olan mexanizmləri maksimum dərəcədə nəzərə almalıdır. Konstitusiyanın mühafizəsi Əsas Qanunun nüfuzu və sarsılmaz dəyərlər nöqteyi-nəzərindən çıxış edir. Konstitusiyanın aliliyi və mühafizəsi, o cümlədən insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı Əsas Qanunda öz əksini tapmış normaların mühafizəsi bütün hakimiyyət institutlarının fəaliyyəti üçün konstitusiya rejimi kimi özünü büruzə verir və formalaşdırılır. O, bütün hüquq sistemini əhatə edir və konstitusiya təminatlarının, eləcə də dövlətin cəmiyyət, vətəndaşlar və insanlar qarşısında öhdəliklərinin gücləndirilməsi ilə müşayiət olunur. Azərbaycan dövləti Konstitusiyada nəzərdə tutulmuş normalara, o cümlədən insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı normalara ciddi əməl olunması üçün müvafiq tədbirlər görmək və bütün fəaliyyət sahələrində qanunun aliliyini təmin etmək imkanlarına malikdir.

9. Azərbaycan qanunvericiliyi vətəndaş cəmiyyəti kimi bir fenomenin varlığını mövcud olan bütün əlamətləri ilə birgə qəbul edir. Bununla belə, hesab edirik ki, vətəndaş cəmiyyəti institutlarının artmaqda olan nüfuzunu nəzərə alaraq, Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaş cəmiyyətinin anlayışını əks etdirən ayrıca maddənin öz əksini tapması məqsədəuyğun olardı. Zənnimizcə, vətəndaş cəmiyyəti institutlarına bu cür daha əhatəli tərif verilməsi məqsədəmüvafiq olardı: Vətəndaş cəmiyyəti dedikdə, dövlətdən asılı olmayan, lakin onunla sıx təmasda və mütəmadi əlaqədə olan, inkişaf mərhələsi hüquqi dövlətin inkişaf mərhələsi ilə eyni olan, özü inkişaf edərək hər bir demokratik dövlətin sosial əsasını təşkil edən, davamlı hərəkət halında insan

və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində aparıcı mövqe tutan, o cümlədən vətəndaşların hüquqlarının realizə edilməsinə köməklik göstərən, onların maarifləndirilməsini ön plana çəkən qeyri-dövlət strukturu kimi antitotalitar cəmiyyət başa düşülür.

10. Qeyri-dövlət strukturu kimi vətəndaş cəmiyyəti institutlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yeri olduqca böyükdür. Belə ki, qəbul edilməsi nəzərdə tutulan normativ hüquqi aktların Əsas Qanuna zidd olmasının qarşısının alınması məqsədilə onların vətəndaş cəmiyyəti institutlarında geniş müzakirəsi keçirilir. Bu işdə vətəndaş cəmiyyəti institutu olan Heydər Əliyev fondunun xüsusi xidmətləri vardır. Ümumilikdə götürdükdə, Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının funksiyaları özündə aşağıdakıları birləşdirir: vətəndaşların qanun yaradıcılığı prosesində iştirakı; vətəndaş cəmiyyəti institutlarının dövlət orqanları üzərində nəzarəti; vətəndaşların ölkənin siyasi həyatında iştirakı; maarifləndirmə funksiyası; ətraf mühitin mühafizəsi; vətəndaşları hüquq pozuntusu törətməkdən çəkindirmək; vətəndaşların hüquqlarının realizə edilməsinə köməklik göstərmək və s. Qeyd olunan işlərin həyata keçirilməsi Konstitusiyanın hüquqi mühafizəsi mexanizminin tərkib hissəsini təşkil edir.

11. Konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı Milli Məclisin üzərinə çox böyük vəzifələr düşür. AR Milli Məclisinin dövlət hakimiyyəti sistemində aparıcı rolu onun Konstitusiyanın hüquqi mühafizəsi məsələlərinin həllində fəaliyyətini qabaqcadan müəyyən edir və bu baxımdan səlahiyyətləri üzərində müəyyən izlər buraxır. Milli Məclis Konstitusiyanın hüquqi mühafizəsi üçün Əsas Qanunun verdiyi imkanlardan fəal istifadə edir və fəaliyyətinin bu istiqamətini ardıcıl olaraq genişləndirir. Milli Məclis Konstitusiyanın hüquqi mühafizəsini təmin etmək məqsədilə ilk növbədə Əsas Qanunda öz əksini tapmış müddəaların pozulmasına görə məsuliyyət müəyyən edən normalar qəbul edir. Konstitusiyanın hüquqi mühafizəsinin Milli Məclis tərəfindən həyata keçirilməsinə ehtiyacın olmasını Konstitusiya Məhkəməsinin qərarları da sübut edir. Belə ki, adıçəkilən Məhkəməyə hal-hazırkı dövrə kimi edilən müraciətlərin 27-si bilavasitə Milli Məclis tə-

rəfindən qəbul olunmuş normativ hüquqi aktların bəzi maddələrinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair olmuşdur. Konstitusiya Məhkəməsinin on üç müraciət əsasında gəldiyi nəticə ondan ibarət olmuşdur ki, Milli Məclisin qəbul etdiyi normativ hüquqi aktlar Azərbaycan Respublikasının Konstitusiyasına uyğundur. Bununla yanaşı, təəssüflər olsun ki, on dörd halda Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biri sayılan Milli Məclisin qəbul etdiyi qanunların bəzi maddələri Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olmadığı üçün Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edilmişdir.

12. Konstitusiyanın hüquqi mühafizəsinin həyata keçirilməsində Azərbaycan Respublikası Prezidentinin prioritet mövqeyi vardır. Azərbaycan Respublikasının Prezidenti Konstitusiyada öz əksini tapmış bütün normalara ciddi surətdə əməl etməklə, heç bir halda vəzifəsindən sui-istifadə etməməklə Konstitusiyanın hüquqi mühafizəsini həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi vəzifəsinin icrasına başladığı ilk gündən bunun üçün əlində olan bütün səlahiyyətlərdən istifadə edərək onun tam həyata keçirilməsinə və Əsas Qanunun hərtərəfli mühafizəsini reallaşdırmaq naminə səmərəli töhfə vermək niyyətində olduğunu nümayiş etdirir. Həmin dövrdən etibarən Prezidentin hüquq yaradıcılığı aydın şəkildə Konstitusiya normalarının həyata keçirilməsinə istiqamətlənmişdir. Azərbaycan Respublikası Prezidentinin fəaliyyətinin əhatə etdiyi sahələrdən biri olan Konstitusiyanın hüquqi mühafizəsi haqqında təsəvvürlər göstərir ki, bu iş onun tərəfindən icraya qəbul edilmiş və Əsas Qanunun yüksək səviyyədə mühafizəsi üçün önəmli işlər görülmüşdür. Azərbaycan Respublikasının dövlət başçısı təkcə Konstitusiyanın hüquqi mühafizəsinin deyil, həm də ictimai sülhün, siyasi sabitliyin təminatçısıdır. Azərbaycanın güclü prezident modeli Azərbaycan dövlətçiliyinin indiki inkişaf mərhələsində unikallığını nəzərə alaraq əhəmiyyətli üstünlüklərə malikdir.

13. Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biri olan hüquq mühafizə orqanlarının leqal anlayışı Azərbaycan Respublikasının qanunvericiliyində əks olunmamışdır. Fikrimizcə, hüquq mühafizə orqanlarına aşağıdakı kimi tərif verilməsi məqsədəuyğun olardı: Hüquq mühafizə orqanları dedikdə, öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında əks olunmuş normalar əsasında və müəyyən prosedur qaydalar gözlənilməklə qanunçuluğu, hüquq qaydasını, insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini, dövlətin və bütövlükdə cəmiyyətin maraqlarının qorunmasını, hüquq pozuntularının xəbərdar edilməsini və onların qarşısının alınmasını təmin etməli olan və qanunazidd əməl törətmiş şəxsə qarşı dövlət məcburetmə tədbirləri tətbiq edən dövlət orqanları başa düşülür.
14. Konstitusiya Məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi Əsas Qanunun hüquqi mühafizəsi mexanizminin əsas və mühüm ünsürünə çevrilmişdir. Konstitusiya Məhkəməsi mühüm hüquqi əhəmiyyət kəsb edən bir sıra funksiyaları, o cümlədən özünün müdafiə mexanizmi funksiyasını yerinə yetirir. Hansı formada həyata keçirilməsindən asılı olmayaraq, konstitusion-ədalət mühakiməsi vasitəsilə elan olunmuş hüquq və azadlıqların müdafiəsi ilə yanaşı, Konstitusiyanın hüquqi mühafizəsi həyata keçirilir, onun aliliyinin, hakimiyyətlər bölgüsü prinsipinə əməl edilməsinin təmin olunması üzrə ümumi vəzifələri həll edilir. Adıçəkilən Məhkəmənin qərarları digər məhkəmələrin düzgün istiqamətlənməsinə, habelə maddi və prosessual hüquq normalarının pozulmasının qarşısının alınmasına köməklik edir. Müasir dövrdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Konstitusiyanın hüquqi mühafizəsi üzrə fəaliyyətinin əsas istiqamətlərini ictimai münasibətlərin iştirakçıları arasındakı münaqişə və mübahisələri Konstitusiya, digər qanunvericilik aktları və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ əsasında həll etmək, qanunların və digər aktların, müxtəlif dövlət orqanlarının, vəzifəli şəxslərin hərəkətlərinin (hərəkətsizliyinin) konstitusiyanın prinsip və normalarına uyğunluğunu yoxlamaq,

qüvvədə olan normativ hüquqi aktlar arasında mövcud olan boşluqları aşkara çıxarmaq və onları aradan qaldırmaq və ya aradan qaldırılması məqsədilə qanunvericilik hakimiyyətini həyata keçirən orqana tövsiyə vermək, müxtəlif hakimiyyət qollarının balanslaşdırılmış şəkildə fəaliyyət göstərməsini təmin etmək, vətəndaşların və ictimai münasibətlərin digər subyektlərinin pozulmuş hüquq və azadlıqlarını müdafiə və bərpa etmək təşkil edir.

15. Ümumi və ixtisaslaşdırılmış məhkəmələrə konstitusiya nəzarətini həyata keçirən orqana müraciət etmək hüququ verilməsi konstitusiya nəzarətinin fəaliyyət mexanizminin mütərəqqi və demokratik cəhətlərindən biri kimi çıxış edir. Belə ki, adıçəkilən məhkəmələrə Konstitusiya Məhkəməsinə müraciət hüququnun verilməsi Əsas Qanunun hüquqi mühafizəsinin effektivliyini daha da artırmaqla yanaşı, fiziki və hüquqi şəxslərin dövlətdaxili müdafiə sistemini də təkmilləşdirir. Ümumi və ixtisaslaşdırılmış məhkəmələrə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun verilməsi Əsas Qanunun aliliyinin, hüquqi mühafizəsinin və sabitliyinin təmini, konstitusiya ilə təsbit olunmuş demokratik norma və prinsiplərin qorunması, hakimiyyətin müxtəlif qollarının müəyyən edilmiş səlahiyyət balansının təmini, qanunvericilik aktlarında öz əksini tapmış insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, hüquq və qanunvericilik sistemində mövcud olan ziddiyyətlərin aşkara çıxarılması və aradan qaldırılması məqsədi daşıyır.

16. Konstitusiya Məhkəməsi Ali Məhkəmənin qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair bəzi işlərə cavabdeh tərəfin, yəni Ali Məhkəmənin nümayəndəsinin iştirakı olmadan baxmışdır. Zənnimizcə, Konstitusiya məhkəmə icraatında cavabdeh tərəfin mütləq iştirakının təmin edilməsinin qanunvericilikdə öz əksini tapması baxılan işlərin daha hərtəfərli araşdırılması nöqteyi-nəzərindən məqsədəuyğun olardı. Konstitusiyanın hüquqi mühafizəsinin məhkəmə mexanizmini təkmilləşdirmək məqsədilə təklif edirik ki, Konstitusiya Məhkəməsi haqqında 23 dekabr 2003-cü il tarixli Azərbaycan Respublikası Qanununun 41.5-ci maddəsinə

aşağıdakı məzmunda cümlə əlavə edilsin: Cavabverənlər və ya onların nümayəndələri Konstitusiya məhkəmə icraatında mütləq iştirak etməlidirlər.

17. Ali Məhkəmənin məhkəmə aktları ilə əlaqədar Konstitusiya Məhkəməsi 215 (iki yüz on beş) qərar qəbul etmişdir. Bunların əksəriyyəti Ali Məhkəmənin Mülki Kollegiyasının qərarları ilə bağlı olmuşdur. Sözügedən 215 Qərarın 210-da qeyd olunmuşdur ki, Ali Məhkəmə tərəfindən qəbul edilmiş qərar Konstitusiyaya və qanunlara uyğun olmayan hesab edilsin. Fikrimizcə, Ali Məhkəmənin qəbul etdiyi 210 məhkəmə qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan hesab edilməsi, Konstitusiyanın hüquqi mühafizəsi üzrə Ali Məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi zərurətini yaradır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, dissertasiya işi Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizə mexanizminə həsr olunmuş monoqrafik xarakterli ilk elmi tədqiqat işidir. Tədqiqat işində, həmçinin ilk dəfə olaraq Konstitusiyanın hüquqi mühafizəsinin nəzəri aspektləri, Konstitusiyanın hüquqi mühafizəsi sahəsində xarici təcrübə, Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizə sisteminin yaranması və inkişaf tarixi, Əsas Qanunun hüquqi mühafizəsinin məhkəmə mexanizmi və s. məsələlər araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** onunla müəyyən olunur ki, dissertasiyada irəli sürülmüş nəzəri təkliflər Konstitusiya hüququ institutunun elmi bazasını zənginləşdirə bilər, tədqiqat işinin nəticələrindən hüquq fakültələrində Konstitusiya hüququ fənni tədris edilərkən istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya tədqiqatının əsas müddəaları və nəticələri nüfuzlu elmi jurnallarda və elmi-praktiki konfransların materiallarında dərc edilmişdir: Legal position of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan on local self-government // Cuba: UNIVERSIDAD Y SOCIEDAD, - 2022, - Volume 14, S1, February, - p. 134-139 (Web of Science 000761754400016, - Category: Social Sciences, Interdisciplinary, - Journal Citation Indicator (JCI) - 0.04) adlı məqalə Web of Science

elmi bazasında, История развития законодательства о конституционном суде Азербайджанской Республики // - Москва: Вопросы истории, - 2020. № 6, - с. 269-276: adlanan məqalə isə həm Web of Science Core Collection: Arts & Humanities Citation Index (Journal Citation Indicator (JCI) - 0.41), həm də Scopus elmi bazasında indeksləşdirilmişdir. Həmçinin Main activities of the constitutional court of the Republic of Azerbaijan on the Legal Protection of the Constitution sərlövhəli məqalə həm Web of Science, həm də Scopus elmi bazasında indeksləşdirilmişdir // Cuba: UNIVERSIDAD Y SOCIEDAD, - 2023, - Volume 15, Number 2, March-April, - p. 442-447: (000761754400016 - Category: Social Sciences, Interdisciplinary, - Journal Citation Indicator (JCI) - 0.04).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya girişdən, beş fəsli özündə birləşdirən 16 (on altı) paraqrafdan (birinci fəslin üçüncü paraqrafı iki bəndə bölünmüşdür), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İstifadə edilmiş ədəbiyyat siyahısı istisna edilməklə dissertasiyanın ümumi həcmi boşluqsuz 424059 (dörd yüz iyirmi dörd min əlli doqquz) işarədən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi aşağıdakı kimidir:

- Titul səhifəsi - 355 (üç yüz əlli beş) işarə;
- Mündəricat - 3548 (üç min beş yüz qırx səkkiz) işarə;
- Giriş - 24295 (iyirmi dörd min iki yüz doxsan beş) işarə;
- Birinci fəsil - 66226 (altmış altı min iki yüz iyirmi altı);
- İkinci fəsil - 101648 (yüz bir min altı yüz qırx səkkiz);
- Üçüncü fəsil - 93550 (doxsan üç min beş yüz əlli);
- Dördüncü fəsil -56723 (əlli altı min yeddi yüz iyirmi üç);
- Beşinci fəsil - 47291 (qırx yeddi min iki yüz doxsan bir);
- Nəticə - 30422 (otuz min dörd yüz iyirmi iki).

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** seçilmiş mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənilmə dərəcsi işıqlandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır, işin nəzəri və təcrübi əhəmiyyəti açıqlanır.

Dissertasiya işinin birinci fəslində **"Konstitusiyanın hüquqi mühafizəsinin nəzəri aspektləri"** tədqiq edilmişdir. Həmin fəslin **"Konstitusiyanın aliliyi konstitusiyanın hüquqi mühafizəsinin obyekti kimi"** adlanan birinci paraqrafında qeyd olunur ki, Konstitusiyanın aliliyini təmin etmək üçün konstitusion müddəaların dəqiq diferensiasiyası (fərqləndirilməsi) böyük əhəmiyyət kəsb edir. Bunun üçün hüquq yaradıcılığı fəaliyyətində, ilk növbədə dövlət hakimiyyətinin qanunvericilik orqanlarının fəaliyyətində Əsas Qanunun konkret müddəalarına əsaslanmaq lazımdır. Ölkənin hüquq sistemində Konstitusiyanın aliliyinin təsdiqi (bərqərar olması) bu normativ hüquqi aktın hüquqi təbiəti, onun sosial əsası və məzmunu ilə təyin edilən obyektiv amillərlə şərtlənir. Dövlətin hüquq sistemində Konstitusiyanın ali mövqe tutan normativ hüquqi akt kimi, dövlətin əsas qanunu kimi dərk edilməsi konstitusiya hüququnun təməl müddəalarından biridir. Konstitusiyanın aliliyi təkcə hüquqi aktlar iyerarxiyasında onun mövqeyini səciyyə etmir. Konstitusiya həm də bütün hüquq sahələrinin inkişafı üçün baza kimi çıxış etməklə, qanunvericilik aktlarının yaradılması prosesini tənzimləyir və təsbit edir.

Milli hüquq sistemində bütün digər hüquqi aktlara münasibətdə Konstitusiyanın aliliyi ümumqəbul edilmiş aksiom kimi çıxış edir. Konstitusiya tənzimlədiyi ictimai münasibətlərin yüksək əhəmiyyətlilik dərəcəsinə görə qanunlardan və digər normativ hüquqi aktlardan fərqlənir. Konstitusiya dövlətin əsas institutlarını, vətəndaşların statusunu müəyyən edir, bütün hüquq yaradıcılığı fəaliyyətinin məzmununa təsir göstərir. Tədqiqat zamanı əldə olunmuş nəticəyə görə, dövlətin hüquq sisteminin vəhdətini və tamlığını təmin edən, müstəqil konstitusion prinsip olan Konstitusiyanın aliliyinə geniş şəkildə aşağıdakı kimi anlayış vermək olar: "Konstitusiyanın aliliyi onu ifadə edir ki, istənilən hüquqi akt, hakimiyyət orqanlarının və ya onların

vəzifəli şəxslərinin istənilən hərəkəti Konstitusiyanın normalarına uyğun gəlməli, onun göstərişlərinə zidd olmamalıdır. Normalar arasında ziddiyyət olduqda ictimai münasibətlər konstitusion normalarla tənzimlənir. Konstitusiyanın aliliyi bütün hüquq sisteminin vahidliyi, tamlığı və ziddiyyətsizliyinin təmin edilməsi zərurətindən irəli gəlir. Bütövlükdə hüquq sistemində, o cümlədən normativ hüquqi aktlar içərisində Konstitusiyanın aliliyi onun demokratikliyi, xalqın iradəsinin ifadə olunması, yəni ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi, dövlətçilik ənənələri ilə bağlı hüquqi varisliyin təmin olunması, həmçinin burada beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının təsbit edilməsi, xarici dövlətlərin konstitusionalizm sahəsində müsbət təcrübəsinin öz əksini tapması ilə şərtlənir".

Normativ hüquqi aktların iyerarxiyasında ali mövqe tutan Konstitusiyanın hüquqi qüvvəsi bütün ictimai münasibətlər sisteminə şamil olunur. Konstitusiyanın normativ hüquqi aktların sistemində aliliyi, onun birbaşa hüquqi qüvvəsi hüquqi dövlətin təşkilinin və fəaliyyətinin prinsiplərindən biri kimi çıxış edir. Konstitusiya dövlətin əsas, ali qanunu olmaqla onun bütün ərazisində ən yüksək hüquqi qüvvəyə malikdir.

Dissertasiya işinin birinci fəslinin ikinci paraqrafında **"Konstitusiyanın hüquqi mühafizəsinin anlayışı, formaları və vəzifələri"** təhlil edilmişdir. Burada bildirilir ki, istənilən mühafizə sistemi iki səviyyədə fəaliyyət göstərir. Birinci səviyyədə mühafizə bütün mümkün pozuntuların xəbərdar edilməsinə və qarşısının alınmasına, ikinci səviyyədə isə pozulmuş normaların bərpa edilməsinə və təqsirkarın məsulliyyətə cəlb edilməsinə yönəlir. Analoji hal Konstitusiyanın hüquqi mühafizəsi institutu ilə də baş verir. Konstitusiyanın hüquqi mühafizəsinə alimlər tərəfindən verilən təriflər təhlil edilərək belə bir qənatə gəlinmişdir ki, həmin təriflər Əsas Qanunun hüquqi mühafizəsinin bütün istiqamətlərini özündə tam ehtiva etmir və bu səbəbdən də dissertasiyada Konstitusiyanın hüquqi mühafizəsinə aşağıdakı kimi tərif verilməsini məqsədəuyğun sayılmışdır: "Konstitusiyanın hüquqi mühafizəsi cəmiyyətin və dövlətin təşkilinin əsas prinsiplərinin (konstitusiyanın aliliyi, insan və vətəndaş hüquq və azadlıqlarının təminatlılığı, hakimiyyətlərin bölünməsi, ümumi seçki

hüququ və s.) dəyişilməzliyini və daimiliyini təmin etmək məqsədi ilə qanunvericiliklə müəyyən olunur. Konstitusiyanın hüquqi mühafizəsi konstitusion normaların lazımi şəkildə həyata keçirilməsinin təmin edilməsi və konstitusion qanunçuluğun möhkəmləndirilməsi ilə bağlı kompleks hüquqi tədbirlər sistemidir. Daha geniş mənada Konstitusiyanın hüquqi mühafizəsi dedikdə, konstitusion normaların hüquqi qüvvəsinin təmin edilməsi üzrə zəruri şəraitin yaradılması, müvafiq təminatların inkişaf etdirilməsi və hüquqi vasitə və metodların təkmilləşdirilməsi başa düşülür. Dar mənada isə Konstitusiyanın hüquqi mühafizəsi hüquq sistemində konstitusiyanın aliliyinin təmin edilməsi məqsədilə spesifik konstitusion-hüquqi vasitələrin (üsulların) tətbiqini nəzərdə tutur".

Cari paraqrafda bildirilir ki, müxtəlif dövlət hakimiyyəti orqanları tərəfindən Konstitusiyanın hüquqi mühafizəsinin həyata keçirilməsinin aşağıdakı formalarını fərqləndirmək olar:

a) xəbərdaredici – konstitusion müddəaların pozulması hallarının xəbərdar edilməsinə və qarşısının alınmasına yönəlmişdir;

b) mühafizəedici – Konstitusiyanın pozulmuş normalarının bərpasına və konstitusiya hüquq pozuntusu törədən subyektlərin cəzalandırılmasına yönəlmişdir.

Konstitusiyanın hüquqi mühafizəsinin xüsusiyyəti ondan ibarətdir ki, bütün dövlət orqanları konstitusion normalara əməl olunmasını təmin etməlidir. Faktiki olaraq, bütün Azərbaycan xalqını Konstitusiyanın mühafizəsinin subyekti hesab etmək olar. Çünki Konstitusiya ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir. Konstitusiyanın hüquqi mühafizəsində həmçinin bu və ya digər şəkildə demək olar ki, bütün dövlət hakimiyyəti orqanları iştirak edir. Bununla belə, Konstitusiyanın hüquqi mühafizəsini, onu təşkil edən ünsürlərə ayırıb ətraflı nəzərdən keçirdikdə görürük ki, Azərbaycan Respublikasında Əsas Qanunun hüquqi mühafizəsinin əsas subyektləri aşağıdakılardır:

1) Azərbaycan xalqı;
2) Azərbaycan Respublikasının Prezidenti;
3) Azərbaycan Respublikasının Milli Məclisi;
4) Azərbaycan Respublikasının Nazirlər Kabineti;

5) Azərbaycan Respublikasının hüquq mühafizə orqanları;
6) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi;
7) Azərbaycan Respublikasının Ali Məhkəməsi;
8) Azərbaycan Respublikasının Apellyasiya Məhkəmələri;
9) Azərbaycan Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri;
10) Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsmanı).

Tədqiqat işinin birinci fəslinin "Konstitusiyanın hüquqi mühafizə mexanizminin anlayışı və əsas institutları" adlı üçüncü paraqrafı iki bənddən ibarətdir. "Konstitusiyanın hüquqi mühafizə mexanizminin əlamətləri" adlanan birinci bənddə göstərilir ki, Konstitusiyanın hüquqi mühafizəsi müxtəlif üsul və vasitələrlə (bəzən bu üsul və vasitələr institutlar da adlandırılır) həyata keçirilir. Onlar məcmu halında Konstitusiyanın hüquqi mühafizə mexanizmini əmələ gətirir. Təcrübədə Konstitusiyanın hüquqi mühafizə prinsipləri müxtəlif səbəblərdən pozula bilər. Məhz belə halların qarşısının alınması və ya aradan qaldırılması üçün Konstitusiyanın hüquqi mühafizə mexanizmi institutu formalaşmışdır. AR Konstitusiyasının hüquqi mühafizə mexanizmi konstitusiya normalarının realizə edilməsinə və konstitusion qanunçuluğun müdafiəsinə yönəlmiş xüsusi hüquqi tədbirlərin məcmusudur.

Konstitusiyanın mühafizə üsulu Əsas Qanunun hüquqi mühafizəsi həyata keçirilən zaman dövlət hakimiyyəti orqanları tərəfindən tətbiq edilən hərəkət və ya hərəkətlər sistemidir. İlk növbədə, buraya Konstitusiyanın hazırlanmasının, qəbulunun və dəyişdirilməsinin xüsusi qaydası aiddir. Bu qayda bir-biri ilə qarşılıqlı əlaqədə olan iki əsas tələbə cavab verməlidir: Konstitusiyanın stabilliyinin təmin olunması və onun dəyişdirilməsinin mümkünlüyü. Belə yanaşma konstitusiya quruluşunun sabitliyinin və eyni zamanda cəmiyyətdə mümkün dəyişikliklərin nəzərə alınması imkanının təmin olunması zərurəti ilə şərtlənir.

Hüquqi ədəbiyyatda Konstitusiyanın hüquqi mühafizəsini həyata keçirən üsul və vasitələrin sayı ilə bağlı vahid mövqe yoxdur. Bununla belə, dissertasiyada o alimlərin fikirləri dəstəklənir ki, onlar

aşağıdakıları Konstitusiyanın hüquqi mühafizəsini həyata keçirən üsul və vasitələr hesab edirlər:

1) Konstitusiyanın hazırlanmasının, qəbulunun və dəyişdirilməsinin xüsusi qaydası;
2) Konstitusiyanın özünümühafizə mexanizmi;
3) Konstitusiyanın şərhi;
4) Konstitusiya nəzarəti.

Təşkilati-hüquqi təminatlar Əsas Qanunun mütləq hüquqi mühafizəsini təmin etmir. Məhz bu səbəbdən, Konstitusiyanın özündə də onun özünümühafizə mexanizmi nəzərdə tutulur. Hüquqi təbiətinə görə Konstitusiya sabitlik xüsusiyyətinə malikdir ki, bu da onun özünümühafizə mexanizminin əsasını təşkil edir.

Aparılmış təhlillər əsasında belə bir nəticəyə gəlinmişdir ki, Konstitusiyanın şərhinə aşağıdakı kimi tərif vermək olar: "Konstitusiyanın şərhi dedikdə, yeni norma yaradılmadan qanunverici orqanın səlahiyyət verdiyi orqan tərəfindən Konstitusiyanın yalnız müəyyən normalarının qanunçuluq, obyektivlik, ədalətlilik, humanizm və hərtərəflilik prinsiplərinə ciddi əməl etməklə onun məzmununun izah edilməsi və dəqiq aydınlaşdırılması başa düşülür. Bu zaman Konstitusiyanın bütövlükdə özü və onun fəsillərinin adı şərhetmənin obyekti ola bilməz".

Birinci fəslin üçüncü paraqrafının ikinci bəndi **"Konstitusiya nəzarəti konstitusiyanın hüquqi mühafizəsinin vasitəsi kimi"** adlanır. Sözügedən bənddə bildirilir ki, konstitusiya nəzarətinin fəaliyyət mexanizmi Konstitusiyanın aliliyinin, hüquqi mühafizəsinin və sabitliyinin təmini, Konstitusiya ilə təsbit olunmuş demokratik norma və prinsiplərin qorunması, hakimiyyətin müxtəlif qollarının müəyyən edilmiş səlahiyyət balansının təmini, Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, hüquq və qanunvericilik (normativ hüquqi aktlar) sistemində mövcud olan ziddiyyətlərin aşkara çıxarılması və aradan qaldırılması məqsədi daşıyır.

Konstitusiyanın hüquqi mühafizəsində mərkəzi yeri konstitusiya nəzarəti tutur. Müasir dövrdə bu, ən səmərəli vasitələrdən biri hesab olunur. Geniş mənada, konstitusiya nəzarətinin əsas təyinatı Konstitusiyaya uyğun gəlməyən normativ hüquqi aktların və vəzifəli

şəxslərin hərəkətlərinin aşkara çıxarılması və həmin uyğunsuzluqların aradan qaldırılması üzrə zəruri tədbirlərin görülməsindən ibarətdir. Başqa sözlə, konstitusiya nəzarəti dövlət hakimiyyəti orqanlarının, habelə ictimai funksiyalar yerinə yetirən ictimai birliklərin aktlarının və fəaliyyətinin Konstitusiyaya uyğunluğunun yoxlanılmasının istənilən formasını özündə əks etdirir. Konstitusiya nəzarəti dövlət hakimiyyəti orqanları arasında elə münasibətlər sistemidir ki, bu zaman nəzarət orqanları (məsələn, parlament, dövlət başçısı, konstitusiya məhkəməsi) mübahisəli məsələlər üzrə qəti qərar qəbul etmək, habelə Konstitusiyaya zidd hesab edilmiş aktları ləğv etmək hüququna malik olurlar. Konstitusiya nəzarətinin  zəruriliyi ilk növbədə hüquq normalarının iyerarxiyalı olması ilə əlaqədardır.

Konstitusiya nəzarətinə tələbat cəmiyyətdə real gerçəkliklə şərtlənir. Təcrübə göstərir ki, bəzi hallarda Konstitusiyaya uyğun olmayan aktlar qəbul edilir, konstitusiyanın və qüvvədə olan qanunvericiliyin tətbiqi sahəsində mübahisəli vəziyyətlər yaranır. Bu zaman belə problemlərin həlli konstitusiya nəzarəti orqanlarının səlahiyyətinə aid edilir.

Dissertasiya işinin ikinci fəslində **"Konstitusiyanın hüquqi mühafizəsinin fərqli hüquq sistemlərindəki xüsusiyyətləri"** araşdırılır. Həmin fəslin **"Konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı ingilis-sakson hüquq sistemli dövlətlərin təcrübəsi"** başlıqlı birinci paraqrafında qeyd edilir ki, hər bir ölkədə milli-mənəvi dəyərləri, tarixi ənənələri və sosial-mədəni inkişaf səviyyəsini nəzərə alan hüquq sistemi mövcuddur. Müasir dünyada geniş vüsət alan qloballaşma prosesi ölkələr arasında qarşılıqlı əlaqələri intensivləşdirir. Belə qarşılıqlı əlaqələrin qurulması vacib olduğu kimi, xarici ölkələrin mövcud qanunvericilik aktlarının öyrənilməsi, onların oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsi də xüsusi önəm kəsb edir.

İngiltərə, Şimali İrlandiya, Sinqapur, Uels, Amerika Birləşmiş Ştatları, Kanada, Avstraliya, Yeni Zelandiya, Qana və s. ingilis-sakson hüquq sistemli ölkələrin təcrübəsi göstərir ki, konstitusiya nəzarətini həyata keçirən orqanlar arasında ümumi və ixtisaslaşdırılmış məhkəmələr olduqca mühüm rol oynayır. İngilis-sakson hüquq sistemli dövlətlərin hər birində konstitusiya nəzarəti uzunmüddətli tarixi

bir inkişaf yolu keçmişdir. Məsələn, ABŞ-da bu institutun iki yüz illik tarixi vardır.

Müstəqilik qazanana qədər ingilis-sakson hüquq sistemli ölkələrin ərazisində, o cümlədən ABŞ-ın ərazisində Britaniya İmperiyasının təsiri yüksək olduğundan onların hüquq sistemi Böyük Britaniyanın hüquq sisteminə analoji şəkildə formalaşmışdır. Məhz bu səbəbdən, adıçəkilən dövlətlərdə Ali Məhkəmənin xüsusi rolu vardır. Bununla belə, ABŞ-ın konstitusiya prinsipləri xeyli dərəcədə inkişaf etmiş və hazırda konstitusiya nəzarətinin ABŞ modeli o qədər xarakterik xüsusiyyətə malikdir ki, bu nəzarətin müstəqiliyi və yüksək səviyyədə inkişaf etmiş olması şübhə doğurmur.

İngilis-sakson hüquq sistemli ölkələrdə konstitusiyanın mühafizəsi hüququn aliliyi prinsipinə əsaslanır və bu dövlətlərdə Konstitusiyanın qanunlar və digər hüquqi aktlar üzərində prioritetliyini təmin etmək üçün müxtəlif üsullar müəyyən edilmişdir. Sözügedən ölkələrdə konstitusiya nəzarəti insan hüquqlarının müdafiəsinə yönəlmişdir. İngilis-sakson hüquq sistemli ölkələrin məhkəmələri yalnız Konstitusiyaya uyğunluqla bağlı məsələlərə deyil, həm də bu məsələlərlə bağlı olmayan istənilən işə baxa bilər. Buna görə də sözügedən ölkələrin Ali Məhkəmələrini ixtisaslaşmış konstitusiya nəzarəti orqanı kimi xarakterizə etmək olmaz. Adıçəkilən dövlətlərdə Konstitusiyaya uyğunluqla bağlı məsələ ayrıca iş kimi baxılması üçün məhkəməyə verilə bilməz. Bu məsələ yalnız məhkəmədə konkret hüquqi mübahisə həll edilən zaman yarana bilər. Məhkəmənin, o cümlədən Ali Məhkəmənin qərarı Konstitusiyaya zidd normaları ləğv etmir, sadəcə olaraq həmin normaların məhkəmələrdə baxılan işlərə tətbiq edilməməsinə icazə verir.

Dissertasiyanın ikinci fəslinin **"Konstitusiyanın hüquqi mühafizəsi sahəsində kontinental hüquq sistemli ölkələrin təcrübəsi"** adlı ikinci paraqrafında aparılmış təhlillər əsasında qeyd olunur ki, ingilis-sakson hüquq sistemli ölkələrdə olduğu kimi, kontinental hüquq sistemli dövlətlərdə də Konstitusiyanın mühafizəsi hüququn aliliyi prinsipinə əsaslanır. Postsosialist ölkələri istisna olmaqla, kontinental hüquq sistemli 33 dövlətdə Konstitusiya Məhkəməsi, 15 dövlətdə Konstitusiya Şurası, 3 dövlətdə Konstitusiya Tribunalı, 2

dövlətdə Ali Konstitusiya Məhkəməsi, 1 dövlətdə Xüsusi Konstitusiya Məhkəməsi, 1 dövlətdə Dövlət Məhkəməsi, 1 dövlətdə Xüsusi Ali Məhkəmə fəaliyyət göstərərək, Konstitusiyanın mühafizəsini həyata keçirir. Danimarka, İsveçrə, Finlandiya, İslandiya və Norveç kimi dövlətlərdə konstitusiya nəzarəti ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən, İsveçdə isə Qanunvericilik Şurası tərəfindən həyata keçirilir. Kontinental hüquq sistemli ölkələrin əksəriyyətində xüsusi yurisdiksion dövlət orqanı meydana çıxdıqdan sonra, o, təşkilati cəhətdən məhkəmə sistemindən ayrılaraq, müstəsna səlahiyyət, konstitusion mübahisələrə baxmaq və həll etmək hüququ əldə etmişdir. Bu zamandan etibarən ümumi yurisdiksiyalı məhkəmələr konstitusion problemləri müstəqil şəkildə həll etmək hüququndan məhrum olmuşlar.

Kontinental hüquq sistemli ölkələrdə konstitusiya nəzarətinin fəaliyyət mexanizmində onun obyektləri ilə bağlı məsələ xüsusi yer tutur. Sözügedən dövlətlərin əksəriyyətində konstitusiya nəzarətinin obyektlərinə əsasən aşağıdakı aktlar aid edilir: konstitusiya layihələri; konstitusiyaya dəyişikliklər; konstitusiya prinsiplərini pozan aktlar; qanunlar; qanun qüvvəli aktlar; digər normativ aktlar; beynəlxalq müqavilələr; məhkəmələrin qərarları; yerli özünüidarəetmə orqanlarının qərarları; partiyaların qərarları; ictimai təşkilatların qərarları.

Dissertasiyanın ikinci fəslinin üçüncü paraqrafında **"Konstitusiyanın hüquqi mühafizəsi sahəsində postsosialist dövlətlərin təcrübəsi"** tədqiq edilmişdir. Bu paraqrafda bildirilir ki, bütün postsosialist ölkələri kontinental hüquq sistemli dövlətlərdir. Postsosialist ölkələrinin 23-də Konstitusiya Məhkəməsi, 1 dövlətdə Konstitusiya Nəzarəti Məhkəməsi, 1 dövlətdə Konstitusiya Şurası, 1 dövlətdə Konstitusiya Tribunalı, 1 dövlətdə isə Dövlət Məhkəməsi fəaliyyət göstərərək Konstitusiyanın mühafizəsini həyata keçirir. Postsosialist ölkələrindən yalnız Türkmənistanın qanunvericilik aktlarında konstitusiya nəzarəti institutunun təsis edilməsi nəzərdə tutulmamışdır. Türkmənistanın Konstitusiyasına əsasən, qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarının Konstitusiyaya və qanunlara uyğunluğunu Türkmənistanın Parlamenti müəyyən edir. Ali məhkəmə instansiyası kimi Estoniya Respublikasında fəaliyyət göstərən

Dövlət Məhkəməsi isə həm də konstitusiya nəzarətini həyata keçirir. Estoniya Respublikasının Dövlət Məhkəməsində Konstitusiya Nəzarəti üzrə Məhkəmə Kollegiyası fəaliyyət göstərir. Estoniya Respublikasının Dövlət Məhkəməsinin sədri eyni zamanda Konstitusiya Nəzarəti üzrə Məhkəmə Kollegiyasının sədridir.

Bəzi postsosialist ölkələrində konstitusiya nəzarətini həyata keçirən Konstitusiya Məhkəmələri (Tribunalları) hələ sosialist sisteminin mövcudluğu zamanı təsis edilmişdir. Belə ki, keçmiş Yuqoslaviyanın tərkibində olmuş respublikalarda – Bosniya və Herseqovinada, Şimali Makedoniya Respublikasında, Monteneqro Respublikasında, Xorvatiya Respublikasında, Serbiya Respublikasında və Sloveniya Respublikasında 1963-cü ildən Konstitusiya Məhkəməsi, Polşada isə 1985-ci ildən Konstitusiya Tribunalı fəaliyyət göstərir.

Belarus Respublikasının Konstitusiya Məhkəməsi dünyada Konstitusiyanın mühafizəsini həyata keçirən yeganə milli orqandır ki, beynəlxalq orqanların aktlarının Konstitusiyaya uyğunluğunu yoxlamaq səlahiyyətinə malikdir.

Postsosialist ölkələrinin təcrübəsində konstitusiya nəzarətini həyata keçirən orqanların üzvlərinin say tərkibi və strukturu müxtəlifdir ki, bu da bir sıra amillərdən, o cümlədən dövlətin quruluşundan, onun inzibati ərazi bölgüsündən məhkəməyə müraciət hüququna malik olan subyektlərin dairəsindən və s. amillərdən asılıdır. Bu, Ukraynada 18 nəfər, Serbiya Respublikasında, Polşa Respublikasında, Macarıstanda və Çex Respublikasında 15 nəfər, Xorvatiya Respublikasında və Slovakiya Respublikasında 13 nəfər, Bolqarıstan Respublikasında və Belarus Respublikasında 12 nəfər, Rusiya Federasiyasında 11 nəfər, Şimali Makedoniya Respublikası, Bosniya və Herseqovina, Monteneqro Respublikası, Sloveniya Respublikası, Albaniya, Rumıniya, Monqolustan, Estoniya Respublikası, Litva Respublikası, Özbəkistan Respublikası, Qırğızıstan Respublikası və Gürcüstan kimi ölkələrdə 9 nəfərdir. Tacikistan Respublikasında, Latviya Respublikasında və Qazaxıstan Respublikasında konstitusiya nəzarətini həyata keçirən Konstitusiya Məhkəməsinin (Konstitusiya Şurasının) 7, Moldova Respublikasında isə 6 üzvü vardır.

Dissertasiyanın ikinci fəslinin dördüncü paraqrafı **"Amparo proseduru"nun tətbiq edildiyi dövlətlərin və İslam hüquq sisteminə aid ölkələrin konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı təcrübəsi"** adlanır. Həmin paraqrafda qeyd olunur ki, Latın Amerikasının inkişaf etmiş demokratik dövlətlərində Konstitusiyanın hüquqi mühafizəsinin həyata keçirilməsi bir sıra institusional və yurisdiksion xüsusiyyətlərinə baxmayaraq, o, az və ya çox dərəcədə ingilis-sakson hüquq sistemli ölkələrdə yaxud Avropa modelinə aid olan dövlətlərdə həyata keçirilən Konstitusiyanın hüquqi mühafizəsi ilə yaxud konstitusiya ədalət mühakiməsinin qarışıq formaları ilə əlaqələndirilə bilər. Bu modellərdən biri də Latın Amerikasının bir sıra dövlətlərində (Argentina, Boliviya, Meksika Birləşmiş Ştatları, Braziliya, Venesuela Bolivar Respublikası, Qvatemala, Honduras, Kolumbiya, Kosta-Rika, Dominikan Respublikası, Ekvador, Panama, Salvador, Çili, Uruqvay, Peru, Nikaraqua, Paraqvay Respublikası), Avropa ölkələri içərisində isə İspaniyada uzun onilliklər ərzində fəaliyyət göstərən "amparo proseduru" və ya "amparo haqqında iddia ərizəsi" yaxud "amparo şikayəti" (latın mənşəli "amparo" sözü "müdafiə", "qəyyumluq", "himayə" mənalarını ifadə edir) adlanan ixtisaslaşdırılmış məhkəmə nəzarəti sistemidir.

Latın Amerikasının inkişaf etmiş demokratik dövlətlərində konstitusiyanın hüquqi mühafizəsinin ən səmərəli vasitələrindən biri olan konstitusiya nəzarəti funksiyasını Ali Məhkəmə başda olmaqla ümumi yurisdiksiyalı məhkəmələr həyata keçirir.

Latın Amerikasının bir sıra dövlətlərində konkret məhkəmə çəkişmə növü olan amparo prosesi müəyyən orijinallığı ilə seçilir. Amparo proseduru ümumi mənada demək olar ki, ingilis-sakson hüquq ənənəsini xatırladan hüquq institutudur. Eyni zamanda, inkar etmək olmaz ki, bu anlayış təkcə fiziki azadlığın qorunmasına deyil, vətəndaşların bütün konstitusion hüquq və azadlıqlarının təminatına aiddir.

Fiziki və hüquqi şxslər tərəfindən amparo proseduru əsasında məhkəmə iddiası şifahi və ya sadə yazılı formada,dövlət rüsumu ödənilmədən qaldırılır.

Amparo prosedurunun predmetini ərizəçi tərəfindən şikayət olunan normativ aktın, dövlət orqanının və ya vəzifəli şəxsin hərəkə-

tinin yaxud hərəkətsizliyinin Konstitusiyaya uyğun olmasının müəyyən edilməsi təşkil edir.

İslam hüquq sisteminə aid dövlətlərin əksəriyyətində Konstitusiyanın hüquqi mühafizəsinin ən səmərəli vasitələrindən biri olan konstitusiya nəzarəti funksiyasını ingilis-sakson hüquq sistemli və amparo prosedurunun tətbiq edildiyi dövlətlərin əksəriyyətində olduğu kimi Ali Məhkəmə başda olmaqla ümumi yurisdiksiyalı məhkəmələr, bəzilərində isə Konstitusiya Məhkəmələri həyata keçirir. Konstitusiya Məhkəməsinin mövcud olduğu İslam hüquq sisteminə aid dövlətlərdə konstitusiya nəzarəti funksiyasının həyata keçirilməsi Konstitusiya Məhkəməsinin, Konstitusiya Məhkəməsinin mövcud olmadığı dövlətlərdə isə Ali Məhkəmə başda olmaqla ümumi yurisdiksiyalı məhkəmələrinin səlahiyyətinə aiddir.

Mərakeş Krallığı, Bəhreyn Krallığı, Sudan, Misir Ərəb Respublikası, Küveyt və İndoneziya Respublikası kimi dövlətlərdə Konstitusiya Məhkəməsi fəaliyyət göstərir. Başqa cür ifadə etsək, İslam hüquq sisteminə aid dövlətlərin yalnız altısının qanunvericilik aktlarında Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı normalar mövcuddir. Adıçəkilən dövlətlərin Konstitusiyalarında Konstitusiya Məhkəməsinin son instansiya olması və həmin məhkəmənin qərarından şikayət verilməsinin qeyri-mümkünlüyü, Konstitusiyaya uyğun olmayan aktların etibarsız hesab edilməsi və Konstitusiya Məhkəməsinin qərarının bütün orqan və vəzifəli şəxslər tərəfindən icrasının məcburiliyi qeyd olunmuşdur.

Həmçinin konstitusiya nəzarəti funksiyasının Ali Məhkəmə başda olmaqla ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən həyata keçirildiyi dövlətlərin konstitusiyalarında qanunların Konstitusiyaya uyğun olması, Konstitusiyaya və qanunlara əməl etməyin hər kəsin borcu olması, məhkəmə orqanlarının fiziki və hüquqi şəxslərin hüquqlarını layiqincə müdafiə etmək vəzifəsi öz əksini tapmışdır. Məsələn, 3 dekabr 1979-cu il tarixdən qüvvəyə minmiş İran İslam Respublikası Konstitusiyasının 156-cı maddəsinə görə, hakimiyyətin müstəqil qolu olan məhkəmə orqanlarının əsas vəzifəsi bütün insanların hüquqlarını müdafiə etmək və cəmiyyətdə ədaləti təşviq etməkdir.

İslam hüquq sisteminə aid dövlətlərin qanunvericilik aktlarında Konstitusiyaya tərif verilməmişdir. Universal olaraq hesab edilir ki, Konstitusiya dövlətin əsas institutlarının tərkibini, səlahiyyətlərini və fəaliyyət üsullarını tənzimləyən qaydaları, vətəndaşlara münasibətdə tətbiq edilən ümumi prinsipləri müəyyən edən ali qüvvəyə malik hüquqi sənəddir. Konstitusiyada öz əksini tapmış prinsiplər İslam dininin əsas prinsipləri ilə eynilik təşkil edir. Bütün İslam hüquq sisteminə aid dövlətlərin konstitusiyalarında insan və vətəndaş hüquq və azadlıqlarına təminat verilir.

Dissertasiyanın dörd paraqrafdan ibarət olan üçüncü fəsli **"Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizəsinin müasir mexanizminin ümumi səciyyəsi və onun formalaşmasında mülki cəmiyyətin rolu"** adlanır. Həmin fəslin birinci paraqrafında **"Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizə sisteminin yaranması və inkişafı"** araşdırılır. Burada qeyd edilir ki, Azərbaycanın nə 19 may 1921-ci il, nə də 26 mart 1927-ci il tarixli Konstitusiyasında Əsas Qanunun mühafizəsi ilə bağlı müddəa öz əksini tapmasa da, həmin dövrdə Konstitusiyanın mühafizəsi sahəsində Ümumazərbaycan Sovetlər Qurultayı aparıcı rola malik idi. Belə mühafizənin mövcudluğu Əsas Qanunun normalarının məzmunundan irəli gəlirdi.

31 yanvar 1924-cü il tarixli SSRİ Konstitusiyası qüvvəyə mindikdən sonra Konstitusiyanın mühafizəsi ilə bağlı SSRİ Ali Məhkəməsi də müəyyən funksiyaları yerinə yetirirdi. Belə ki, sözügedən Konstitusiyanın 43-cü maddəsində müttəfiq respublikaların qəbul etdikləri hüquqi aktların Konstitusiyaya uyğunluğu barədə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin müraciəti əsasında SSRİ Ali Məhkəməsinin izah verməsi nəzərdə tutulmuşdu. SSRİ Ali Məhkəməsi tərəfindən həm də konstitusiya nəzarətinin həyata keçirilməsi 20 iyun 1933-cü il tarixə kimi davam etmişdir. Qeyd olunan tarixdə SSRİ Prokurorluğunun yaranması ilə normativ aktların Konstitusiyaya uyğunluğuna nəzarət funksiyası prokurorluğun səlahiyyətinə aid edilmişdir. Həmin illərdə belə bir nəzər nöqtəsi üstünlük təşkil edirdi ki, konstitusiya nəzarətinin məhkəmədənkənar orqan tərəfindən həyata keçirilməsi daha məqsədəuyğundur.

5 dekabr 1936-cı il tarixli SSRİ Konstitusiyası rəhbər tutularaq, 14 mart 1937-ci il tarixdə qəbul edilmiş Azərbaycan SSR-in sayca üçüncü Əsas Qanununda Konstitusiyanın ancaq Ali Sovetin qərarı ilə dəyişdirilməsinin mümkünlüyü öz əksini tapmışdı. 14 mart 1937-ci il tarixli Konstitusiyada birbaşa göstərilməsə də, Konstitusiyanın hüquqi mühafizəsini demək olar ki, ali hakimiyyət orqanı, yəni Ali Sovet həyata keçirirdi.

7 oktyabr 1977-ci il tarixdə qəbul edilmiş SSRİ-nin sonuncu Konstitusiyası xüsusi konstitusiya nəzarəti orqanı yaratmadı və bu funksiyaları SSRİ Ali Sovetinin və SSRİ Ali Sovetinin Rəyasət Heyətinin üzərinə qoydu. Həmçinin 21 aprel 1978-ci il tarixli Azərbaycan SSR-in Konstitusiyasında konstitusiya nəzarətinin Ali Sovet və Ali Sovetin Rəyasət Heyəti tərəfindən həyata keçirilməsi ilə bağlı normalar əks olunmuşdu.

1 dekabr 1988-ci ildə "SSRİ Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında" Qanunun qəbul olunması ilə demək olar ki, Konstitusiyanın hüquqi mühafizəsinə xüsusi diqqət yetirilməsinə başlanıldı. Belə ki, həmin Qanunda Konstitusiyanın hüquqi mühafizəsini həyata keçirəcək ixtisaslaşmış xüsusi orqanın – SSRİ Konstitusiya Nəzarəti Komitəsinin yaradılması nəzərdə tutulurdu. Adıçəkilən Komitə qanunların və digər hüquqi aktların dövlətin Əsas Qanununa uyğun olmasına nəzarət etməli idi. Yalnız nəzarət funksiyasını həyata keçirən SSRİ Konstitusiya Nəzarəti Komitəsi Konstitusiyaya və qanunlara uyğun olmayan aktları ləğv etmək hüququna malik deyildi.

1990-cı ilin mart ayının 14-də qəbul edilmiş "SSRİ-nin Prezidenti vəzifəsinin təsis edilməsi və SSRİ Konstitusiyasına (Əsas Qanuna) əlavə və dəyişikliklər edilməsi haqqında" Qanunla, həmçinin SSRİ-nin Prezidenti konstitusiya nəzarəti funksiyasını əldə etdi. SSRİ Ali Soveti və SSRİ Ali Sovetinin Rəyasət Heyəti isə konstitusiya nəzarəti ilə bağlı səlahiyyətlərini tam itirdi.

SSRİ-nin dağılması ilə 1991-ci ilin dekabr ayında SSRİ Konstitusiya Nəzarəti Komitəsi fəaliyyətini dayandırdı. Azərbaycanda da Konstitusiya Nəzarəti Komitəsinin yaradılması nəzərdə tutulsa da, təcrübədə həyata keçmədi.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Konstitusiyanın hüquqi mühafizəsinə xüsusi önəm verilir.

Tədqiqat işinin üçüncü fəslinin **"İnsan və vətəndaş hüquq və azadlıqlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yeri"** adlı ikinci paraqrafında göstərilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 158 maddəsindən 49-u məhz əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur. Başqa sözlə, Konstitusiyada öz əksini tapmış normaların 31 faizi insan və vətəndaş hüquq və azadlıqlarından bəhs edir. Təsadüfi deyildir ki, 18 mart 2009-cu ildə və 26 sentyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi ilə bağlı keçirilmiş ümumxalq səsverməsində (referendumda) Əsas Qanunun insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuş 49 maddəsindən 19-u əlavə və dəyişikliyə məruz qalmışdır. 18 mart 2009-cu il tarixdə keçirilmiş referendumda Əsas Qanunun 12, 25, 29, 32, 93, 48, 50 və 67-ci maddələrinə, 26 sentyabr 2016-cı il tarixdə keçirilmiş referendumda isə 24, 25, 29, 32, 36, 47, 53, 56, 57, 58, 59, 60, 68 və 71-ci maddələrinə əlavə və dəyişikliklər edilmişdir.

Hesab olunur ki, insan və vətəndaş hüquq və azadlıqlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yeri böyük olduğu üçün Əsas Qanunun mühafizəsi Konstitusiya müddəalarının və prinsiplərinin dəyişməzliyini və sabitliyini təmin etmək üçün mövcud və gələcəkdə zəruri olan mexanizmləri maksimum dərəcədə nəzərə almalıdır. Konstitusiyanın mühafizəsi Əsas Qanunun nüfuzu və sarsılmaz dəyərlər nöqteyi-nəzərindən çıxış edərək, Konstitusiyaya qarşı mövqelərin bütün mümkün variantlarını əks etdirməlidir.

Konstitusiyanın aliliyi və mühafizəsi, o cümlədən insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı Əsas Qanunda öz əksini tapmış normaların mühafizəsi bütün hakimiyyət institutlarının fəaliyyəti üçün konstitusiya rejimi kimi özünü biruzə verir və formalaşdırılır. Bu rejim bütün hüquq sistemini əhatə edir və konstitusiya təminatlarının, eləcə də dövlətin cəmiyyət, vətəndaşlar və insanlar qarşısında öhdəliklərinin gücləndirilməsi ilə müşayiət olunur. Azərbaycan dövləti Konstitusiyada nəzərdə tutulmuş normalara, o cümlədən insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı normalara ciddi əməl

olunması üçün müvafiq işlər görmək və bütün fəaliyyət sahələrində qanunun aliliyini təmin etmək bacarığına malikdir.

Dissertasiyada qeyd edilir ki, Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq, insan və vətəndaş hüquqlarının və azadlıqlarının real müdafiəsi üçün birbaşa göstərişlər əsasında konstitusiya təhlükəsizliyinin təmin olunduğu qənaətinə gəlmək olar.Dissertasiyanın üçüncü fəslinin üçüncü paraqrafı **"Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsinin xüsusi qaydası Konstitusiyanın hüquqi mühafizə mexanizminin ünsürü kimi"** adlanır. Həmin paraqrafda qeyd olunur ki, sosial və siyasi dəyişikliklər, ictimai baxışların transformasiyası, dövlət institutlarının müasirləşdirilməsi, habelə güclənən inteqrasiya prosesi qüvvədə olan Konstitusiyada cəmiyyətin fəaliyyətinə və inkişafına mane olan, işləməyən normaların meydana çıxmasına gətirib çıxarır. Belə vəziyyətdə Əsas Qanuna əlavə və dəyişikliklərin edilməsi zərurəti yaranır. Konstitusiya normaları yeni normativ hüquqi aktlar və bütövlükdə ölkənin bütün qanunvericilik aktlarının yaradılması üçün özünəməxsus impuls funksiyasını yerinə yetirir, bu da onların stabilliyini tələb edir. Həmin normaların sabitliyini isə məhz onlara əlavə və dəyişikliklərin edilməsinin bir qədər mürəkkəb olan xüsusi qaydası ilə təmin etmək olar. Qüvvədə olan Konstitusiyanın mümkün təkmilləşdirilməsi, başqa cür ifadə etsək, ona əlavə və dəyişikliklərin edilməsi hüquqi dövlətin konstitusiya sisteminin nüfuzunun azalmaması üçün balanslaşdırılmış, əsaslandırılmış və ictimaiyyət tərəfindən müzakirə edilmiş bütöv konsepsiya əsasında həyata keçirilməlidir.

Konstitusiyanın hüquqi mühafizə mexanizminin ünsürü olan Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsinin xüsusi qaydası konstitusionalizmin mühüm tərkib hissəsidir. Çünki əlavə və dəyişikliklər nəticəsində həm Əsas Qanunun sabitliyi, həm də cəmiyyətin dəyişən tələbləri təmin edilir. Konstitusiyaya əlavə və dəyişikliklər edilərkən konstitusiya mədəniyyətinə ciddi riayət olunması da olduqca vacibdir.

Dissertasiyanın üçüncü fəslinin **"Hüquqi dövlətdə vətəndaş cəmiyyəti institutlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yeri"** başlıqlı dördüncü paraqrafında bildirilir ki, Azər-

baycan qanunvericiliyi vətəndaş cəmiyyəti kimi bir fenomenin varlığını mövcud olan bütün əlamətləri ilə birgə qəbul edir. Vətəndaş cəmiyyəti institutlarının artmaqda olan nüfuzunu nəzərə alaraq Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaş cəmiyyətinin anlayışını əks etdirən ayrıca maddənin öz əksini tapması məqsədəuyğun hesab olunur və vətəndaş cəmiyyəti institutlarına daha əhatəli tərif verilməsi təklif edilir: "Vətəndaş cəmiyyəti dedikdə, dövlətdən asılı olmayan, lakin onunla sıx təmasda və mütəmadi əlaqədə olan, inkişaf mərhələsi hüquqi dövlətin inkişaf mərhələsi ilə eyni olan, özü inkişaf edərək hər bir demokratik dövlətin sosial əsasını təşkil edən, davamlı hərəkət halında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində aparıcı mövqe tutan, o cümlədən vətəndaşların hüquqlarının realizə edilməsinə köməklik göstərən, onların maarifləndirilməsini ön plana çəkən antitotalitar cəmiyyət başa düşülür".

Qeyri-dövlət strukturu kimi vətəndaş cəmiyyəti institutlarının Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində yeri olduqca böyükdür. Belə ki, qəbul edilməsi nəzərdə tutulan normativ hüquqi aktların Əsas Qanuna zidd olmasının qarşısının alınması məqsədilə, onların vətəndaş cəmiyyəti institutlarında, o cümlədən qeyri-hökumət təşkilatlarında, həmkarlar ittifaqlarında, mediada geniş müzakirəsi keçirilir. Bu işdə vətəndaş cəmiyyəti institutu olan Heydər Əliyev fondunun xüsusi xidmətləri vardır.

Ümumilikdə götürdükdə, Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının funksiyaları özündə aşağıdakıları birləşdirir: vətəndaşların qanun yaradıcılığı prosesində iştirakı; vətəndaş cəmiyyəti institutlarının dövlət orqanları üzərində nəzarəti; vətəndaşların ölkənin siyasi həyatında iştirakı; maarifləndirmə funksiyası; ətraf mühitin mühafizəsi; vətəndaşları hüquq pozuntusu törətməkdən çəkindirmək; vətəndaşların hüquqlarının realizə edilməsinə köməklik göstərmək və s. Qeyd olunan işlərin həyata keçirilməsi Konstitusiyanın hüquqi mühafizəsi mexanizminin tərkib hissəsini təşkil edir. Məhz bu səbəbdən, Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində adıçəkilən institutların rolu danılmazdır.

Tədqiqat zamanı belə bir qənaətə gəlinmişdir ki, vətəndaş cəmiyyəti institutlarının Konstitusiyanın hüquqi mühafizəsi mexaniz-

mində yeri tədqiq edilərkən aşağıdakı məsələlərə xüsusi önəm verilməsi zəruridir: vətəndaş cəmiyyəti institutlarının mahiyyətinin araşdırılması; vətəndaş cəmiyyəti institutları ilə bağlı qanunvericilik aktlarının dərindən öyrənilməsi; vətəndaş cəmiyyəti institutları ilə dövlət hakimiyyət orqanlarının qarşılıqlı əlaqəsi.

Dissertasiyanın **"Azərbaycan Respublikasında Konstitu-siyanın hüquqi mühafizəsini həyata keçirən qanunvericilik və inzibati fəaliyyət üzrə dövlət orqanları"** adlı dördüncü fəsli üç paraqrafdan ibarətdir. Həmin fəslin **"Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi"** adlı birinci paraqrafında qeyd olunur ki, Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək və onun mühafizəsini həyata keçirmək Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətində önəmli yer tutur. Konstitusiyanın mühafizəsi ilə bağlı Milli Məclisin üzərinə çox böyük vəzifələr düşür. Azərbaycan Respublikası Milli Məclisinin dövlət hakimiyyəti sistemində aparıcı rolu onun Konstitusiyanın hüquqi mühafizəsi məsələlərinin həllində fəaliyyətini qabaqcadan müəyyən edir və bu baxımdan səlahiyyətləri üzərində müəyyən izlər buraxır. Başqa sözlə, Milli Məclis Konstitusiyanın hüquqi mühafizəsi üçün Əsas Qanunun verdiyi imkanlardan fəal istifadə edir və fəaliyyətinin bu istiqamətini ardıcıl olaraq genişləndirir. Milli Məclis Konstitusiyanın hüquqi mühafizəsini təmin etmək məqsədilə ilk növbədə Əsas Qanunda öz əksini tapmış müddəaların pozulmasına görə məsuliyyət müəyyən edən normalar qəbul edir. Milli Məclis tərəfindən qəbul edilmiş 30 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 40 maddəsi və 29 dekabr 2015-ci il tarixli Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 133 maddəsi birbaşa Konstitusiyanın hüquqi mühafizəsinə həsr olunmuşdur. Bundan başqa, Konstitusiyanın hüquqi mühafizəsinin Milli Məclis tərəfindən həyata keçirilməsinə ehtiyacın olmasını Konstitusiya Məhkəməsinin qərarları da sübut edir. Belə ki, adıçəkilən Məhkəməyə hal-hazırki dövrə kimi edilən müraciətlərin 27-si bilavasitə Milli Məclis tərəfindən qəbul olunmuş normativ hüquqi aktların bəzi maddələrinin Azərbaycan Respublikasının Konstitiusiyasına uyğunluğunun yoxlanılmasına dair olmuşdur. Konstitusiya Məhkəməsinin 13

müraciət əsasında gəldiyi nəticə ondan ibarət olmuşdur ki, Milli Məclisin qəbul etdiyi normativ hüquqi aktlar Azərbaycan Respublikasının Konstitusiyasına uyğundur, başqa sözlə, həmin normativ hüquqi aktlar Əsas Qanunun normaları ilə ziddiyyət təşkil etmir. Bununla yanaşı, müəllif təəssüflə bildirir ki, 14 halda Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biri sayılan Milli Məclisin qəbul etdiyi qanunların bəzi maddələri Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olmadığı üçün Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edilmişdir.

Tədqiqat işinin dördüncü fəslinin ikinci paraqrafı **"Azərbaycan Respublikasının Prezidenti Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi"** adlanır. Burada qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti Konstitusiyanın hüquqi mühafizəsinin mühüm subyektlərindəndir. Bu da tam başadüşüləndir, çünki Əsas Qanunun 103-cü maddəsinin birinci hissəsində Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyi barədə and içməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti Konstitusiyada öz əksini tapmış bütün normalara ciddi surətdə əməl etməklə, o cümlədən Konstitusiyaya zidd olmayan fərman və sərəncamlar verməklə, qanunları ona təqdim olunmuş gündən başlayaraq 56 gün ərzində imzalamaqla, qanunvericilik təşəbbüsü hüququnun subyekti kimi Milli Məclisin müzakirəsinə Konstitusiyaya uyğun olan qanun layihələrini təqdim etməklə, Əsas Qanuna uyğun olmayan Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv etməklə, zərurət yarandıqda fövqəladə və hərbi vəziyyət elan etməklə, heç bir halda vəzifəsindən sui-istifadə etməməklə Konstitusiyanın hüquqi mühafizəsini həyata keçirir.

Konstitusiyada öz əksini tapmış bütün normaların, o cümlədən insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı normaların dövlət təminatı sistemində Azərbaycan Respublikasının Prezidenti önəmli yer tutur. Hüquq və azadlıqların təminatında Azərbaycan Respublikası Prezidentinin önəmli yer tutması onunla izah edilir ki, Prezident

dövlət başçısı kimi bütovlükdə dövlət mexanizminin əlaqələndirilməsini və fasiləsiz işləməsini təmin edir. Prezidentin əlaqələndirici rolu dövlət hakimiyyətinin vəhdətinin, dövlət işlərinin idarə edilməsi sisteminin sabitliyinin, hakimiyyət qollarının hakimiyyət bölgüsü şəraitində koordinasiyalı fəaliyyətinin təmin edilməsinə yönəlmişdir ki, bu da son nəticədə Konstitusiya normalarının realizə olunmasını təmin edir. Bir növ razılaşdırılma funksiyasını həyata keçirən dövlət başçısı dövlət orqanları arasında fikir ayrılıqlarını tənzimləmək, uzlaşma prosedurlarını təşkil etmək, dövlət hakimiyyətinin səmərəliliyini təmin etmək məqsədilə Konstitusiyada öz əksini tapmış səlahiyyətlərindən istifadə hüququna malikdir. Prezident, eyni zamanda ümummilli prioritetləri müəyyən etməklə, dövlət orqanlarının formalaşmasında iştirak etməklə bütün dövlət mexanizminin fəaliyyətinə nəzarət edir. Yəni prezidentlik anlayışının ictimai-siyasi dəyəri onun dövlət başçısı olaraq təcəssümündədir ki, bu həm daxili işlərdə, həm də beynəlxalq münasibətlərdə mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, prezidentlik institutu dövlətin inkişafında zəruri dəyişikliklər əsasında sabitliyin təmin edilməsinə töhfə verir.

Əsas Qanunda öz əksini tapmış normalara ciddi riayət olunmasının tələb edilməsi Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi Azərbaycan Respublikası Prezidentinin siyasətinin başlıca meyarıdır. Azərbaycanın davamlı inkişafı üçün Azərbaycan Respublikası Prezidentinin geniş səlahiyyətlərə malik olması zəruridir. Çünki məhz Prezident bütün dövlət orqanları və vəzifəli şəxslər arasında əlaqələndirici kimi çıxış edir, Azərbaycan əhalisinin hüquqlarını, azadlıqlarını və qanuni maraqlarını təmin edir, Konstitusiyanın hüquqi mühafizəsini həyata keçirir. Bütün bunlarla bağlı, Prezidenin səlahiyyətləri müxtəlif formalarda özünü büruzə verir – daxili və xarici siyasətin əsas istiqamətlərini müəyyən etməkdən, konseptual sənədlərin hazırlanmasından tutmuş dövlətin inkişafı haqqında proqramların elan edilməsinə kimi.

Azərbaycan Respublikasının dövlət başçısı təkcə Konstitusiyanın hüquqi mühafizəsinin deyil, həm də ictimai sülhün, siyasi sabitliyin təminatçısıdır. Azərbaycanın güclü prezident modeli Azərbaycan dövlətçiliyinin indiki inkişaf mərhələsində unikallığını nəzərə alaraq

əhəmiyyətli üstünlüklərə malikdir ki, bu da əksər hallarda xəyali təhlükələr naminə qurban verilməməlidir. Bu üstünlüklərdən biri də Konstitusiya normalarının müdafiəsi və onların pozulmasının qarşısının alınması ilə bağlı müstəqil və səmərəli fəaliyyət göstərməyə imkan yaradan hüquqi statusun mövcud aspektləri əsasında Konstitusiyanın hüquqi mühafizəsində Prezidentin fəal iştirakıdır. Konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı Prezidentin müstəqil fəaliyyətinin məqsədi dövlət suverenliyinə, ərazi bütövlüyünə, ölkənin siyasi-hüquqi birliyinə və ictimai quruluşun əsaslarına qarşı baş verə biləcək təhlükənin qarşısını almaqdır.

Konstitusiyanın hüquqi mühafizəsini reallaşdıran Prezidentin müstəqil davranışları ilə onun digər dövlət orqanları ilə birgə fəaliyyəti arasında fərq ondan ibarətdir ki, o, birinci halda müvafiq tədbirlərin görülməsinin zəruriliyi barədə təkbaşına qərar qəbul edir, onlara görə tam məsuliyyət daşıyır və bu qərarları dövlət başçısının birbaşa göstərişlərinə tabe olmağa borclu olan müvafiq dövlət orqanları vasitəsilə həyata keçirir. Bu cür səlahiyyətlərin həyata keçirilməsi Konstitusiyanın hüquqi mühafizəsi sahəsində Prezidentlik institutunun əvəzolunmaz rolunu əyani şəkildə nümayiş etdirir, həmçinin bütün siyasi sistemə sabitlik, tarazlıq gətirən və onun davamlı inkişafına töhfə verən bir element kimi prezident hakimiyyətinin mahiyyətini özündə əks etdirir.

Hüquqi iyerarxiyanın zirvəsi olaraq Əsas Qanunun mühafizəsi sahəsində Prezident konstitusiya nəzarəti formasında normativ hüquqi aktların Konstitusiyaya uyğunluğuna nəzarəti həyata keçirir. Belə təsnifatın müəyyən nəzəri əhəmiyyəti vardır. Çünki o, Konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı digər fəaliyyət növləri arasında normativ nəzarəti fərqləndirməyə və onun əhəmiyyətini vurğulamağa imkan verir. Bununla belə, Konstitusiyanın hüquqi mühafizəsi ilə konstitusiya quruluşunun müdafiəsini yalnız çox şərti şəkildə bir-birindən ayırmaq olar, çünki Prezident normativ hüquqi aktların Konstitusiyaya uyğunluğuna nəzarət etməklə, konstitusiya quruluşunun müvafiq konstitusiya normaları əsasında təsbit edilmiş ünsürlərinin müdafiəsini təmin edir. Başqa sözlə, normativ nəzarət də konstitusiya quruluşunun, cəmiyyətin və dövlətin müdafiəsinə hesablanmışdır.

Azərbaycan Respublikasının Prezidenti Konstitusiyanın hüquqi mühafizəsi sahəsində səlahiyyətlərini bir qayda olaraq aşağıdakı formalarda həyata keçirir:

1) qanunvericilik prosesində iştirak (qanunvericilik təşəbbüsü, veto hüququnun realizə edilməsi (Əsas Qanunun 96-cı maddəsinin 1-ci hissəsi, 110-cu maddəsinin 1-ci hissəsi);
2) fərman və sərəncamlar verməklə normayaradıcılığının həyata keçirilməsi (Əsas Qanunun 113-cü maddəsi);
3) Konstitusiyaya uyğun olmayan qərar, sərəncam və aktların ləğv edilməsi (Əsas Qanunun 109-cu maddəsinin 8-ci bəndi);
4) fövqəladə və hərbi vəziyyət elan edilməsi (Əsas Qanunun 109-cu maddəsinin 29-cu bəndi);
5) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verilməsi (Əsas Qanunun 130-cu maddəsinin III hissəsi) və s.

Hesab olunur ki, Konstitusiyanın hüquqi mühafizəsi sahəsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri dövlət başçısının əlaqədə olduğu subyektlərdən asılı olaraq ümumiləşdirilmiş formada aşağıdakı kimi fərqləndirilə bilər:

- Milli Məclisə münasibətdə səlahiyyətlər;
- Nazirlər Kabinetinə, mərkəzi və yerli icra orqanlarına münasibətdə səlahiyyətlər;
- məhkəmə orqanlarına münasibətdə səlahiyyətlər;
- vəzifəli şəxslərə münasibətdə səlahiyyətlər.

Prezident öz səlahiyyətlərinin hər hansı birindən müxtəlif vaxtlarda və müxtəlif ardıcıllıqla istifadə edə bilər. Konstitusiyanın hüquqi mühafizəsi Prezidentin fəaliyyətində dövlət başçısının funksiyalarının həyata keçirilməsinə xas olan digər məqsəd və vəzifələrlə sıx bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi vəzifəsinin icrasına başladığı ilk gündən bunun üçün əlində olan bütün səlahiyyətlərdən istifadə edərək onun tam həyata keçirilməsinə və Əsas Qanunun hərtərəfli mühafizəsini reallaşdırmaq naminə səmərəli töhfə vermək niyyətində olduğunu nümayiş etdirir. Həmin dövrdən etibarən Prezidentin hüquq yaradıcı-

lığı aydın şəkildə Konstitusiya normalarının həyata keçirilməsinə istiqamətlənmişdir.

Prezidentin fəaliyyətinin əhatə etdiyi sahələrdən biri olan Konstitusiyanın hüquqi mühafizəsi haqqında təsəvvürlər göstərir ki, bu iş onun tərəfindən icraya qəbul edilmiş və Əsas Qanunun yüksək səviyyədə mühafizəsi üçün önəmli işlər görülmüşdür.

Tədqiqat işinin dördüncü fəslinin **"Hüquq mühafizə orqanları Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi"** adlı üçüncü paraqrafında bildirilir ki, dövlət və onun orqanlarının fəaliyyəti ictimai həyatın müxtəlif sahələrini əhatə edir. Dövlətin və onun orqanlarının fəaliyyətində qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi, dövlət və qeyri-dövlət təşkilatlarının, əmək kollektivlərinin və ictimai birliklərin hüquq və qanuni maraqlarının mühafizəsi, cinayətkarlıq və digər hüquq pozuntuları ilə mübarizə vəzifələrinin yerinə yetirilməsi önəmli yerlərdən birini tutur. Təsadüfi deyildir ki, bu vəzifələr bu və ya digər şəkildə Azərbaycan Respublikası Konstitusiyasının müxtəlif maddələrində öz təsbitini tapmışdır. Əsas Qanunda öz əksini tapmış normalar tələb edir ki, bütün dövlət orqanları üzərlərinə düşən vəzifələri yerinə yetirsinlər. Bununla bərabər, vətəndaşlar da öz hüquq və azadlıqlarını qanunla nəzərdə tutulmuş üsul və vasitələrdən istifadə edərək müdafiə etməli, dövlət orqanlarının üzərinə düşən vəzifələrin yerinə yetirilməsində onlara kömək göstərməlidirlər.

Qanunçuluğun və hüquq qaydasının təmin olunması həlledici əhəmiyyət kəsb edir ki, xüsusi olaraq bu vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış orqanlar məşğul olur. Bu orqanları hüquq qaydasını mühafizə edən orqanlar, yəni Azərbaycan Respublikasının Konstitusiyası, digər qanunvericilik və hüquqi aktlarla müəyyən edilmiş dövlətin və cəmiyyətin, insanların və vətəndaşların hüquq və azadlıqlarını, yaşayış və fəaliyyət qaydalarını qorumağa qadir olan orqanlar adlandırmaq düzgün olardı.

Cari paraqrafda göstərilir ki, hüquq mühafizə orqanları istənilən dövlətin ayrılmaz hissəsidir. Çünki bütün dövlətlərin hüquq pozuntuları ilə mübarizə aparan xüsusi orqanalara ehtiyacı vardır. Amma Azərbaycan Respublikasının qanunvericiliyində hüquq mühafizə

orqanlarının leqal anlayışı əks olunmamışdır. Ona görə də hüquq mühafizə orqanlarına aşağıdakı kimi tərif verilməsi məqsədəuyğun hesab olunur: "Hüquq mühafizə orqanları dedikdə, öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında əks olunmuş normalar əsasında və müəyyən prosedur qaydalar gözlənilməklə qanunçuluğu, hüquq qaydasını, insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini, dövlətin və bütövlükdə cəmiyyətin maraqlarının qorunmasını, hüquq pozuntularının xəbərdar edilməsini və onların qarşısının alınmasını təmin etməli olan və qanunazidd əməl törətmiş şəxsə qarşı dövlət məcburetmə tədbirləri tətbiq edən dövlət orqanları başa düşülür".

Konstitusiyanın hüquqi mühafizəsinin mühüm subyektlərindən biri də hüquq mühafizə orqanlarıdır. Ölkəmizdə fəaliyyət göstərən bütün hüquq mühafizə orqanları Əsas Qanunda təsbit olunmuş normalara ciddi surətdə əməl etməklə Konstitusiyanın hüquqi mühafizəsini həyata keçirirlər. Bununla belə, hüquq mühafizə orqanları içərisində Konstitusiyanın hüquqi mühafizəsinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prokurorluğu xüsusi statusa malikdir. Belə ki, Əsas Qanunun 130-cu maddəsinin 3-cü hissəsinə əsasən, hüquq mühafizə orqanlarından yalnız Prokurorluğun Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququ vardır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyət göstərdiyi müddət ərzində Əsas Qanunun hüquqi mühafizəsinin həyata keçirilməsi məqsədilə hüquq mühafizə orqanı olan Azərbaycan Respublikasının Prokurorluğu 33 (otuz üç) dəfə adıçəkilən Məhkəməyə sorğu ilə müraciət etmişdir.

Dissertasiyanın **"Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizəsinin məhkəmə mexanizmi"** başlıqlı beşinci fəsli iki paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafında **"Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Konstitusiyanın hüquqi mühafizəsi üzrə fəaliyyətinin əsas istiqamətləri"** araşdırılmışdır. Qeyd olunur ki, Konstitusiyanın hüquqi mühafizəsi və bununla da hüquqi və demokratik dövlətin əsaslarının mühafizəsini təmin etmək bütün dövlət orqanlarının üzərinə düşsə də, bu sahədə konstitusiya nəzarətini həyata keçirən orqanların rolu daha

böyükdür. Konstitusiya nəzarətini həyata keçirən orqanlar sistemində isə konstitusiya məhkəməsi xüsusi yer tutur. Konstitusiya ədalət mühakiməsi müasir dövrün ictimai, siyasi və hüquqi həyatının effektiv və zəruri institutlarından birini təşkil edir. O, qanunların və digər normativ hüquqi aktların Konstitusiyanın normalarına uyğunluğunu təmin etməklə demokratik, hüquqi dövlət quruculuğunda, insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində, dövlət orqanlarının fəaliyyətinin, hüquq tətbiqi və hüquq yaradıcılığı təcrübəsinin daha da təkmilləşdirilməsində, habelə cəmiyyətin dinamik inkişafında mühüm rol oynayır. Bu baxımdan hal-hazırda konstitusiya ədalət mühakiməsini həyata keçirən orqan olan Konstitusiya Məhkəməsi cəmiyyətdə və dövlətdə sabitliyin və inkişafın başlıca faktorlarından biri kimi çıxış edir. Demokratiya şəraitində kəskin siyasi problemlər məhz onun sayəsində Konstitusiya çərçivəsində və əsasında həll edilə bilər. Konstitusiya Məhkəməsi insan hüquqlarının təmin edilməsi üzrə ən mühüm institutlardan biridir. Çünki hüquq və azadlıqların pozulması yalnız dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin qanunazidd hərəkətləri (hərəkətsizliyi) ilə deyil, həm də qanunların özünün Konstitusiyaya zidd olması ilə bağlı ola bilər. Buna görə də dövlət hər kəsin öz hüquq və azadlıqlarını (o cümlədən, qanunun Konstitusiyaya zidd olması hallarından) müdafiə etməsi üçün real imkanlar yaratmalıdır.

Öz qərarlarında insan hüquq və azadlıqlarının pozuntusu ilə bağlı ümumi problemlərə baxan Konstitusiya Məhkəməsinin konkret iş üzrə qərarı hüququ tətbiq edən orqanlar, o cümlədən məhkəmələr üçün hüququn mənbəyi qismində çıxış edir. Konstitusiya nəzarəti orqanının presedenti məhkəmələrin düzgün istiqamətlənməsinə, habelə maddi və prosessual hüquq normalarının pozulmasının qarşısının alınmasına köməklik edir. Hansı formada həyata keçirilməsindən asılı olmayaraq konstitusion-ədalət mühakiməsi vasitəsilə elan olunmuş hüquq və azadlıqların müdafiəsi ilə yanaşı, Konstitusiyanın məhkəmə müdafiəsi, onun aliliyinin, hakimiyyətlər bölgüsü prinsipinə əməl edilməsinin təmin edilməsi üzrə ümumi vəzifələri həll edilir.

Hazırda əsas məqsədləri Konstitusiyanın aliliyini təmin etmək, hər kəsin hüquq və azadlıqlarını müdafiə etməkdən ibarət olan ali

konstitusiya ədalət mühakiməsi orqanı – Konstitusiya Məhkəməsinin yaradılması və fəaliyyəti olduqca önəmli əhəmiyyət edir. Ali ədalət mühakiməsi orqanı kimi Konstitusiya Məhkəməsinin fəaliyyətində əsas yeri konstitusiyanın aliliyinin və mühafizəsinin təmin edilməsi tutur. Bu və ya digər ölkədə Konstitusiyanın hüquqi mühafizəsi mexanizmində konstitusiya ədalət mühakiməsi institutunun rolunu və yerini yalnız milli faktorları və məhkəmə praktikasını nəzərə almaqla müəyyən etmək olar. Lakin danılmaz faktdır ki, hazırda bu institut demokratik hüquqi dövlətin ayrılmaz atributuna, Konstitusiyanın hüquqi mühafizəsi mexanizminin əsas və mühüm elementinə çevrilmişdir. Hüquqi dövlətdə, o cümlədən Azərbaycan Respublikasında məhkəmələr (o cümlədən Konstitusiya Məhkəməsi) birincisi, ictimai münasibətlərin iştirakçıları arasındakı münaqişə və mübahisələri Konstitusiya və qanunlar əsasında həll edir, ikincisi, qanunların və digər aktların, müxtəlif dövlət orqanlarının, vəzifəli şəxslərin hərəkətlərinin Konstitusiyanın prinsip və normalarına uyğunluğunu yoxlayır, üçüncüsü, qüvvədə olan normativ hüquqi aktlar arasında mövcud olan boşluqları aşkara çıxarır və onları aradan qaldırır, dördüncüsü, müxtəlif hakimiyyət qollarının balanslaşdırılmış şəkildə fəaliyyət göstərməsini təmin edir, beşincisi, vətəndaşların və ictimai münasibətlərin digər subyektlərinin pozulmuş hüquq və azadlıqlarını müdafiə və bərpa edir.

Konstitusiya Məhkəməsi qüvvədə olan qanunların hamılıqla qəbul olunmuş beynəlxalq hüquqi standartlara uyğunluğunun təmin edilməsidə mühüm rol oynayır. Adıçəkilən Məhkəmə belə uyğunlaşdırma fəaliyyətini, əsasən Konstitusiyanı və qanunları şərh etmək səlahiyyəti vasitəsilə həyata keçirir. Bu səlahiyyətin mahiyyəti normanın konstitusion mənasını aydınlaşdırmaqla hüquq tətbiqedici orqanların və şəxslərin diqqətinə çatdırmaqdan ibarətdir. Bu zaman Konstitusiya Məhkəməsi qanuna verdiyi rəsmi şərhlə həmin qanunun əvvəlki insan hüquq və azadlıqlarını əsassız məhdudlaşdıran qeyri-konstitusion qaydada tətbiqi imkanlarını aradan qaldırır. Bununla da normanın tətbiqi qaydası dəqiqləşdirilməklə onun məhdudlaşdırıcı və ya genişləndirici formada olan əvvəlki qeyri-konstitusion tətbiqi təsrübəsi dəyişdirilmiş olur. Konstitusiya Məhkəməsinin hüquqi sta-

tusunun ən mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu orqan müstəsna olaraq hüquqi məsələlərin həlli üçün fəaliyyət göstərir. Konstitusiya Məhkəməsi konstitusion-ədalət mühakiməsini həyata keçirməklə işin faktiki hallarının müəyyən edilməsini və tədqiqini həyata keçirmir. Bu, Konstitusiya Məhkəməsinin səlahiyyətlərini məhdudlaşdırsa da, onun səlahiyyətlərinin digər məhkəmələrin səlahiyyətləri ilə eyniləşdirilməsinə də yol vermir. Konstitusiya Məhkəməsi məhkəmə sistemində yeganə məhkəmə orqanıdır ki, müstəsna olaraq konstitusion-ədalət mühakiməsini həyata keçirir və bu da onun hüquqi statusunun fərqli xarakterini göstərir. Məhz bu hal, yəni Konstitusiya Məhkəməsinin ali konstitusiya ədalət mühakiməsi orqanı olması onun bu sahədə digər məhkəmələrdən üstün mövqedə dayandığını göstərir. Lakin Konstitusiya Məhkəməsi yalnız spesifik məhkəmə orqanı kimi çıxış etmir. O, eyni zamanda mühüm dövlət orqanlarından biridir.

Tədqiqatda belə nəticəyə gəlinmişdir ki, Konstitusiya Məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi Əsas Qanunun hüquqi mühafizəsi mexanizminin əsas və mühüm ünsürünə çevrilmişdir. Konstitusiya Məhkəməsi mühüm hüquqi əhəmiyyət kəsb edən bir sıra funksiyaları, o cümlədən özünün müdafiə mexanizmi funksiyasını yerinə yetirir. Müasir dövrdə AR Konstitusiya Məhkəməsinin Konstitusiyanın hüquqi mühafizəsi üzrə fəaliyyətinin əsas istiqamətlərini ictimai münasibətlərin iştirakçıları arasındakı münaqişə və mübahisələri Konstitusiya, digər qanunvericilik aktları və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ əsasında həll etmək, qanunların və digər aktların, müxtəlif dövlət orqanlarının, vəzifəli şəxslərin hərəkətlərinin (hərəkətsizliyinin) Konstitusiyanın prinsip və normalarına uyğunluğunu yoxlamaq, qüvvədə olan normativ hüquqi aktlar arasında mövcud olan boşluqları aşkara çıxarmaq və onları aradan qaldırmaq və ya aradan qaldırılması məqsədilə qanunvericilik hakimiyyətini həyata keçirən orqana tövsiyə vermək, müxtəlif hakimiyyət qollarının balanslaşdırılmış şəkildə fəaliyyət göstərməsini təmin etmək, vətəndaşların və ictimai münasibətlərin digər subyektlərinin pozulmuş hüquq və azadlıqlarını müdafiə və bərpa etmək təşkil edir.

Tədqiqat işinin beşinci fəslinin ikinci paraqrafı **“Azərbaycan Respublikasında Konstitusiyanın hüquqi mühafizəsinin məhkəmə mexanizminin təkmilləşdirilməsi problemləri”** adlanır. Qeyd edilir ki, məhkəmə yurisdiksiyalarının növlərinin yaranması (məhkəmə yurisdiksiyalarının ixtisaslaşması) ədalət mühakiməsinin aparılmasının keyfiyyətinin artırılmasına, məhkəmə səhvlərinin azaldılmasına hesablanmışdır. Bu zaman yurisdiksiyaların ixtisaslaşmasının meyarları kimi hüquq münasibətlərinin subyektləri, hüquq münasibətlərinin predmeti və ya qarışıq meyarlar çıxış edir. İnkişaf etmiş dövlətlərdə olduğu kimi, Azərbaycanda da ümumi və ixtisaslaşdırılmış məhkəmələr fəaliyyət göstərir. Ədalət mühakiməsini həyata keçirən ümumi və ixtisaslaşdırılmış məhkəmələr Azərbaycan Respublikasının məhkəmə sisteminin tərkib hissəsini təşkil edir.

Ədalət mühakiməsinin həyata keçirilməsinin zəruriliyi, ilk növbədə cəmiyyətin və dövlətin müəyyən etdiyi davranış qaydalarının mövcudluğu, habelə ayrı-ayrı fərdlərin hüquqazidd əməllər törətməsi ilə şərtlənir. Ədalət mühakiməsi vasitəsilə neqativ sosial halların, hüquq pozuntularının qarşısı alınır, təqsirli şəxslərin hüquq və azadlıqlarını məhdudlaşdırmaq və ya onları bu hüquq və azadlıqlardan məhrum etmək yolu ilə onların cəzalandırılmasına, sosial ədalətin bərpasına, mühakimə olunan şəxslərin islah edilməsinə və yeni hüquq pozuntularının törədilməsinin qarşısının alınmasına nail olunur. Bütövlükdə, ədalət mühakiməsi, o cümlədən ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə həyata keçirilən ədalət mühakiməsi mövcud zəruri məhkəmə prosedurları vasitəsilə və hamı üçün ümumməcburi qaydada, qüvvədə olan qanunvericilik əsasında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi məqsədilə həyata keçirilən konkret hüquq münasibəti üzrə dövlət fəaliyyətidir. Konstitusiya nəzarəti mexanizminin səmərəli fəaliyyət göstərməsini şərtləndirən mühüm amillərdən biri normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunun yoxlanılması məqsədilə ali məhkəmə ilə yanaşı, ümumi və ixtisaslaşdırılmış məhkəmələrin, həmçinin apellyasiya məhkəmələrinin konstitusiya nəzarətini həyata keçirən orqana birbaşa müraciət etmək imkanına malik olmaları, eləcə də Konstitusiya Məhkəməsinin fərdi şikayət əsasında, Konstitusiyaya zidd norma tətbiq etmiş məh-

kəmənin qərarının dəyişdirilməsi səlahiyyətinə malik olmasıdır. Eyni zamanda, Konstitusiya Məhkəməsi sözügedən məhkəmələrin qərarlarının Konstitusiyaya zidd olduğunu müəyyən etdikdə, həmin qərarları qüvvədən salmaq hüququna malikdir. Ümumi və ixtisaslaşdırılmış məhkəmələrə, həmçinin apellyasiya məhkəmələrinə konstitusiya nəzarətini həyata keçirən orqana müraciət etmək hüququ verilməsi konstitusiya nəzarətinin fəaliyyət mexanizminin mütərəqqi və demokratik cəhətlərindən biri kimi çıxış edir. Çünki adıçəkilən məhkəmələrə Konstitusiya Məhkəməsinə müraciət hüququnun verilməsi Əsas Qanunun hüquqi mühafizəsinin effektivliyini daha da artırmaqla yanaşı, fiziki və hüquqi şəxslərin dövlətdaxili müdafiə sistemini də təkmilləşdirir.

Tədqiqatda göstərilir ki, Konstitusiya Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrlə qarşılıqlı surətdə fəaliyyət göstərir. Müasir dövrdə ictimai münasibətlərin son dərəcə sürətli inkişafı və dəyişməsi ilə əlaqədar olaraq həmin münasibətləri tənzimləyən hüquq normalarının əks olunduğu qanunvericilik aktlarının sayı xeyli dərəcədə artmışdır. Bu baxımdan, onların bir-biri ilə ziddiyyət təşkil etmək və konstitusion müddəalara zidd olmaq ehtimalı da dəfələrlə çoxalmışdır. Konstitusiyanın hüquqi mühafizəsi məqsədilə ümumi və ixtisaslaşdırılmış məhkəmələr tərəfindən Konstitusiya Məhkəməsinə müraciət edilməsi bütövlükdə qanun (norma) yaradıcılığının ciddi şəkildə Konstitusiyaya uyğunluğunun təmin edilməsinə yönəlmişdir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyət göstərdiyi müddət ərzində Konstitusiyanın hüquqi mühafizəsi məqsədilə, Konstitusiyanın və qanunların şərh edilməsi ilə bağlı ümumi və ixtisaslaşdırılmış məhkəmələrin müraciəti əsasında 69, Apellyasiya Məhkəmələrinin müraciəti əsasında isə 75 qərar qəbul etmişdir.

Təqdirəlayiq haldır ki, Konstitusiya Məhkəməsinin fəaliyyət göstərdiyi müddət ərzində Konstitusiyanın hüquqi mühafizəsi məqsədilə qəbul edilmiş qərarların 172-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent rolunu oynayan qərarlarına, bəzi Qərarlarda Avropa Birliyinin Məhkəməsinin təcrübəsinə, Avropa Şurası Nazirlər Komitəsinin və Avropa Şurası Parlament Assambleyasının Tövsiyələrinə, Avropanın digər konstitusiya mühakiməsi orqanlarının akt-

larına, xarici ölkələrin qanunvericilik aktlarına, habelə Niderland və alman alimlərinin fikirlərinə istinad olunmuşdur.

Konstitusiya Məhkəməsi Ali Məhkəmənin qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair bəzi işlərə cavabdeh tərəfin, yəni Ali Məhkəmənin nümayəndəsinin iştirakı olmadan baxmışdır. Hesab edilir ki, Konstitusiya məhkəmə icraatında cavabdeh tərəfin mütləq iştirakının təmin edilməsinin qanunvericilikdə öz əksini tapması baxılan işlərin daha hərtəfərli araşdırılması nöqteyi-nəzərindən məqsədəuyğundur. Konstitusiyanın hüquqi mühafizəsinin məhkəmə mexanizmini təkmilləşdirmək məqsədilə təklif edilir ki, Konstitusiya Məhkəməsi haqqında 23 dekabr 2003-cü il tarixli Azərbaycan Respublikası Qanununun 41.5-ci maddəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin: "Cavabverənlər və ya onların nümayəndələri Konstitusiya məhkəmə icraatında mütləq iştirak etməlidirlər".

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın yekun elmi nəticələri ümumiləşdirilmiş şəkildə öz əksini tapmışdır.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri çap edilmişdir**:


1) Konstitusiyanın hüquqi mühafizəsi mexanizimində Konstitusiyanın aliliyi və onun hüquqi mühafizəsi // - Bakı: Qanun jurnalı, - 2015. № 07 (249), - s.33-40.
2) Hüquqi dövlətdə məhkəmə hakimiyyətinin rolu // - Bakı: Qanun jurnalı, - 2015. № 08 (250), - s.32-38.
3) Konstitusiya nəzarətinin inkişaf tarixi // - Bakı: Qanun jurnalı, - 2015. № 09 (251), - s.23-28.
4) Konstitusiya nəzarətinin növləri və modellərinin özünəməxsus xüsusiyyətləri // - Bakı: Qanun jurnalı, - 2015. № 10 (252), - s.43-49.
5) Konstitusiyanın hüquqi mühafizəsi sistemində Konstitusiya nəzarətinin anlayışı və mahiyyəti // - Bakı: Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, - 2015. № 4, s. 32-42: [Elektron resurs] / https://is.gd/T1R4wZ
6) Hüquqi dövlət ideyasının meydana gəlməsi və inkişafı // - Bakı: Qanun jurnalı, - 2015. № 12 (254), - s.13-18.
7) Konstitusiyanın hüquqi mühafizəsi sistemində konstitusiya nəzarəti mexanizminin hüquq və siyasətlə qarşılıqlı əlaqəsi // Ümummilli lider

H.Ə.Əliyevin anadan olmasının 93-cü ildönümünə və Azərbaycan MEA Fəlsəfə və Hüquq İnstitutunun 70 illiyinə həsr edilmiş "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda VI respublika elmi-nəzəri konfransın materialları, - Bakı: - 5-6 may, - 2016, - s.164-167.

8) Konstitusiyanın aliliyi prinsipi və onun hüquqi qüvvəsi // - Bakı: Qanun jurnalı, - 2017. № 05 (271), - s.47-51.
9) Konstitusiyanın hüquqi mühafizəsi // - Bakı: Qanun jurnalı, - 2017. № 06 (272), - s.43-47.
10) Qanunvericilik və icra hakimiyyətləri arasındakı mübahisələrin həllində konstitusiya məhkəməsinin vasitəçilik rolu // - Bakı: Qanun jurnalı, - 2017. № 07 (273), - s.50-54.
11) Konstitusiya nəzarəti və ictimai təcrübə // - Bakı: Nəqliyyat hüququ jurnalı, - 2017. № 5, - s.209-221.
12) Konstitusiya icraatının anlayışı, predmeti və xüsusiyyətləri // Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutu, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının birgə təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş dəyərlərin müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda respublika elmi-nəzəri konfransın materialları, - Bakı: - 05 may, - 2017, - s. 103-108.
13) Konstitusiya Məhkəməsinin fəaliyyətində hüquq və siyasətin qarşılıqlı əlaqəsi // Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş "Müasir dövrdə Azərbaycan Respublikasında hüquq elminin və təhsilinin əsas inkişaf tendensiyaları" mövzusunda Beynəlxalq elmi-nəzəri konfransın materialları, - Bakı: Bakı Dövlət Universitetinin hüquq fakültəsi, II cild, - 1-2 iyun, - 2017, - s.28-30.
14) Konstitusiya Məhkəməsinin ictimai və dövlət həyatında rolu // - Bakı: International law and integration problems (Scientific-analytical journal), - 2017. № 3 (151), - s. 38-44.
15) Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikasının məhkəmə sistemində yeri və rolu // - Bakı: Dirçəliş XXI ƏSR jurnalı, - 2017. № 183, - s. 29-38.
16) Konstitusiya icraatının iştirakçıları // - Bakı: Qanun jurnalı, - 2017. № 09 (275), - s.84-89.

17) Konstitusiya icraatının prinsipləri və növləri // - Bakı: Qanun jurnalı, - 2017. № 12 (278), - s. 28-33. [Elektron resurs] / https://is.gd/QzvEOe
18) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi təbiəti və onun dövlət mexanizmində yeri // - Bakı: Qanun jurnalı, - 2018. № 02 (280), - s.28-35.
19) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkili və fəaliyyətini tənzim edən hüquq mənbələri // - Bakı: Qanun jurnalı, - 2018. № 03 (281), - s.31-39.
20) Postotalitar dövlətlərdə konstitusiya məhkəmələrinin təşkili və fəaliyyətini tənzim edən hüquq mənbələri // - Bakı: Qanun jurnalı, - 2018. № 04 (282), - s.10-16.
21) Konstitusiya icraatının normativ hüquqi tənzimlənməsi // Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutu, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının birgə təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda respublika elmi-nəzəri konfransın materialları, - Bakı: - 03 may, - 2018, - s. 174-194.
22) Konstitusiya icraatı hüquqi dövlətdə ədalət mühakiməsinin həyata keçirilməsi forması kimi // - Bakı: Qanun jurnalı, - 2018. № 05 (283), - s.14-20.
23) Konstitusiyanın hüquqi mühafizəsi və ictimai təcürbə // AR Milli Məclisi, Bakı Dölət Universiteti və Yeni Azərbaycan Partiyasının görkəmli Dövlət xadimi, tanınmış ictimai-siyasi xadim və alim, əməkdar hüquqşunas, hüquq elmləri doktoru, professor Murtuz Nəcəf oğlu Ələsgərovun anadan olmasının 90 illiyinə həsr edilmiş "Azərbaycanda hüquq elminin müasir inkişaf istiqamətləri və tendensiyaları" mövzusunda keçirdikləri beynəlxalq elmi-praktiki konfransın materialları, - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2-3 noyabr, - 2018, - s. 204-211.
24) Konstitusiya icraatının əsas prinsiplerinin məzmunu // - Bakı: Dirçəliş XXI ƏSR jurnalı, - 2018. № 186, - s. 14-21.
25) Konstitusiya icraatının mərhələləri və prosessual müddətlər // - Bakı: Qanun jurnalı, - 2019. № 02 (292), - s. 25-31.
26) Правовые основы организации Конституционного суда Азербайджанской Республики // - Сумы (Украина): Сумской национальный аграрный университет, юридический факультет, Pri-

vatne ta publične pravo, - 2019. № 1, - с. 27-32: [Электронный ресурс] / http://pp-law.in.ua/archive/1_2019/8.pdf
27) Правовой статус судьи Конституционного суда // - Одесса (Украина): Одесская юридическая академия, Актуальні проблеми держави і права, - 2019. Випуск 82, - с. 288-294: [Электронный ресурс] http://dspace.onua.edu.ua/handle/11300/12484
28) Konstitusiya məhkəməsi hakiminin xüsusi rəyi // Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutu, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Türkiyənin Özyegin Universitetinin Hüquq fakültəsinin birgə təşkil etdiyi "Hüquqi məsuliyyət" mövzusunda Beynəlxalq elmi-nəzəri konfransın materialları, - Bakı: - 29 aprel, - 2019, - s. 42-46.
29) Konstitusiya Məhkəməsinin dövlət həyatında rolu // Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutu, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının birgə təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda respublika elmi-nəzəri konfransın materialları, - Bakı: - 03 may, - 2019, - s. 237-249.
30) Konstitusiya icraatının mərhələlərinin anlayışı və növləri // Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş ""Azərbaycan Respublikasında müasir Hüquq elminin inkişaf istiqamətləri" mövzusunda respublika elmi-praktiki konfransın materialları, - Bakı: - 21 may, - 2019, - s. 72-74.
31) Состав и организация Конституционного Суда Азербайджанской Республики // Министерство образования и науки Украины, юридический факультет Национального Авиационного Университета, Труды Международной конференции "Инновационное развитие правовой науки в условиях модернизации общества", - Киев, - 28 февраля, - 2020, - с. 186-189.
32) Принятие Конституционным судом Азербайджанской Республики запросов и обращений для осмотра и подготовки к судебному рассмотрению // - Дрогобыч (Украина): Наше право, - 2020. № 1, - 6-21: [Электронный ресурс] / http://nashe-pravo.unesco-socio.in.ua/wp-content/uploads/archive/NP-2020-1/NP-2020-1-3.pdf

33) Konstitusiya məhkəməsinə daxil olan sorğular, müraciətlər və şikayətlərin qeydiyyatı və onların ilkin öyrənilməsi // Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr edilmiş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda respublika elmi-praktiki konfransın materialları, - Bakı: - 05 may, - 2020, - s. 209-215.
34) История развития законодательства о конституционном суде Азербайджанской Республики // - Москва: Вопросы истории, - 2020. № 6, - с. 269-276 (Web of Science and Scopus): [Электронный ресурс] / https://is.gd/92a7cE (Journal Citation Indicator (JCI) - 0.41).
35) О специфике конституционного судопроизводства в Азербайджанской Республике // Сборник статей по материалам XXXVII международной научно-практической конференции "Теоретические аспекты юриспруденции и вопросы правоприменения", - Москва, - 03 июля, - 2020, - с. 140-145: [Электронный ресурс] / file:///C:/Users/User/Downloads/7(37).pdf
36) Рассмотрение дел о соответствии правовых актов и международных договоров Конституции Азербайджанской Республики // - Дрогобыч (Украина): LAW UA, - 2020. № 3, - 12-17: [Электронный ресурс] / http://pravo.unesco-socio.in.ua/wp-content/uploads/2020/12/12-_SHyukyurov.pdf
37) Сравнительный обзор назначения и правового статуса судей Конституционного суда Азербайджанской Республики и других стран // Сборник статей XXXII международной научно-практической конференции "Eurasiascience", - Москва, - 30 сентября, - 2020, - с. 231-233: [Электронный ресурс] / clck.ru/37yyTK
38) Некоторые аспекты конституционного контроля и конституционного производства в Азербайджанской Республике // - Москва: Закон и право, - 2020. № 9, - с. 34-38: [Электронный ресурс] /
39) https://elibrary.ru/item.asp?id=43828705
40) Рассмотрение вопроса о продлении срока полномочий созыва Милли Меджлиса Азербайджанской Республики в военный период // "Юридическая наука в XXI веке: актуальные проблемы и перспективы их решений", Сборник научных статей по итогам работы двенадцатого круглого стола со Всероссийским и международным участием, - Шахты (Россия): - 30-31 декабря, - 2020, - с. 63-64 (Часть 1).

41) Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmən elan edilməsi və onun vaxtından əvvəl vəzifədən getməsinə dair işlərə baxılması // Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda respublika elmi-praktiki konfransın materialları, - Bakı: - 05 may, - 2021, - s. 258-264.

42) Konstitusiya Məhkəməsində Milli Məclisin deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiq edilməsi haqqında məsələyə baxılması // Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanın inkişaf strategiyası" mövzusunda respublika elmi-praktiki konfransının tezisləri, - Bakı: - 07 may, - 2021, s. 38-41.

43) Legal position of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan on local self-government // Cuba: UNIVERSIDAD Y SOCIEDAD, - 2022, - Volume 14, S1, February, - p. 134-139; [Electronic resource] / https://rus.ucf.edu.cu/index.php/rus/article/view/2618 (Web of Science 000761754400016), - Category: Social Sciences, Interdisciplinary, - Journal Citation Indicator (JCI) - 0.04.

44) Main activities of the constitutional court of the Republic of Azerbaijan on the Legal Protection of the Constitution // Cuba: UNIVERSIDAD Y SOCIEDAD, - 2023, - Volume 15, Number 2, March-April, - p. 442–447; [Electronic resource] / clck.ru/37mV7e (Web of Science 000761754400016 - Category: Social Sciences, Interdisciplinary, - Journal Citation Indicator (JCI) - 0.04, and Scopus: [Electronic resource] / clck.ru/37mVZw

Dissertasiyanın müdafiəsi 30 05 2025-ci il tarixində saat 11:00 Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1045, Bakı şəhəri, Mərdəkan pr. 30, MAA, 3-cü tədris binasının iclas zalı.

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 04 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2025
Kağızın formatı:60x84 1/16
Həcm: 81532
Tiraj: 100